AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 14 (1414), 2 - 8 aprel 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*




Badmintonçumuz Ezmi Qovimuramadhoni iyunun 21-dən 30-dək Belarusun paytaxtı Minskdə keçiriləcək II Avropa Oyunlarına lisenziya qazanıb. 2018-ci ilin fevralından etibarən Dünya Badminton Federasiyası və Avropa Badminton Konfederasiyasının bayrağı altında keçirilən müxtəlif seriyalı turnirlərdə ölkəmizin idman şərəfini qorumağa başlayan Ezmi Qovimuramadhoni Dünya Badminton Federasiyasının açıqladığı son reytinq siyahısına əsasən bu nailiyyəti əldə edib.

## Badmintonçumuz Minsk-2019-a lisenziya qazanıb

Minsk-2019-da badminton yarışları iyunun 24-dən 30-dək "Falcon club" arenasında keçiriləcək. Kişilərin şəxsi kateqoriyasında ümumilikdə 32 badmintonçu II Avropa Oyunlarının medalları uğrunda mübarizə aparacaq.

Xatırladaq ki, ilk dəfə 2015-ci ildə Azərbaycanda keçirilmiş Avropa Oyunlarında da badminton idman növündə ölkəmizi kişilərin şəxsi yarışında Kənan Rzayev, qoşa yarışda isə Kənan Rzayev - Orxan Qələndərov tandemi təmsil edib.

Hazırda məşqçi kimi çalışan milli komandamızın sabiq üzvləri təşkilatçı ölkənin təmsilçiləri qismində iki kateqoriya üzrə yarışmaq hüququ qazanıblar.

## "Böyük dəbilqə" üçün böyük heyət

Mayın 10-12-də Bakıda keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turniri üçün Azərbaycan yığma komandasının heyəti açıqlanıb.

Doğma arenada keçiriləcək nüfuzlu yarışda ölkəmizi 51 cüdoçu təmsil edəcək. Kişilərin yarışında millimizin heyətində bütün çəki dərəcələrində 4 idmançı olmaqla 28 cüdoçu tatamiyə çıxacaq. Qadınlar arasında isə 23 cüdoçumuzun iştirakı planlaşdırılıb.

İndiyədək 27 ölkədən 225 cüdoçu Bakıda keçiriləcək "Böyük dəbilqə" turnirində iştirakını təsdiqləyib.

## Vüqar Həşimov memorialı start götürdü

Azərbaycanın mərhum qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr edilən "Shamkir Chess 2019" superturnirinin təntənəli açılış mərasimi olub. Şəmkirdəki Heydər Əliyev Mərkəzində altıncı dəfə təşkil olunan yarışın açılış mərasimində əvvəlcə V.Həşimova həsr olunan videoçarx nümayiş etdirilib. Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov bildirib ki, hər il bu tədbirin yüksək səviyyədə təşkili dünya şahmat ictimaiyyətinin marağına səbəb olur. O, superturnirin yüksək səviyyədə keçirilməsinə verdiyi dəstəyə görə SOCAR-a minnətdarlığını bildirib. İcra başçısı Şəmkirin dünya şahmatının Linaresinə çevrildiyini vurğulayıb.




Gənclər və idman naziri Azad Rəhimov məşhur şahmatçıların "Shamkir Chess"də iştirakını Azərbaycanda idmana, xüsusən şahmata verilən dəstəyin nümunəsi adlandırıb. Nazir deyib: "Çox şadıq ki, Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi etmişik.

*(ardı 2-ci səhifədə)*



## Bədii gimnastımız Fransada 2 medal qazanıb

Fransanın Korbel-Esson şəhərində bədii gimnastika üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə ölkəmizi Veronika Qudis, Darya Sorokina, Nərmin Bayramova, Arzu Cəlilova və Nərminə Səmədova təmsil ediblər.

Gənclərin yarışında Arzu Cəlilova lent və gürzlərlə çıxışı ilə fərqlənərək, millimizin hesabına iki bürünc medal yazdırıb. Gimnastımız iplə çıxışına görə isə altıncı olub. Nərmin Bayramova isə topla beşinci yerdə qərarlaşıb.

Böyüklərin mübarizəsində isə Veronika Qudis top ilə yarışı 6-cı, Darya Sorokina isə gürzlərlə 7-ci yerdə başa vurublar.

## Anons



| | |
|---|---|
| *Bakıda Avropa Universal Döyüş Federasiyasının Konqresi keçirilib* Səh. 2 | Gimnastlarımız Dohada yarışıblar Səh. 2 |
| "BP Azərbaycan" şirkəti paracüdo üzrə Bakı Qran-Prisinin rəsmi tərəfdaşı olacaq Səh. 2 | *OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü* Səh. 3 |
| *Azərbaycan güləş yığmasının açıq məşqi* Səh. 4 | "Azərreyl"dən növbəti çempionluq Səh. 4 |
| Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıqlar davam edir Səh. 6 | *"Neftçi"dən minimal hesablı qələbə* Səh. 7 |
| *Bakı finalında futbolçuları müşayiət edəcək uşaqlar seçilib* Səh. 7 | |



## Voleybolçumuz CEV kubokunun gümüş medalçısıdır

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Katerina Jidkova Avropa Voleybol Konfederasiyası (CEV) kuboku yarışlarının gümüş medalını qazanıb.

Voleybolçumuzun çıxış etdiyi Rumıniyanın "Alba" komandası final görüşündə İtaliyanın "Yamamay" komandası ilə qarşılaşıb. İlk görüşdə İtaliya təmsilçisinə doğma meydanda 0:3 hesabı ilə məğlub olan "Alba" cavab qarşılaşmasında da 1:3 hesabı ilə uduzub. Beləliklə, iki oyunun nəticəsinə görə, "Yamamay" üçüncü dəfə CEV kuboku yarışlarının qalibi olub.

Qeyd edək ki, cavab qarşılaşmasında voleybolçumuz 10 xal toplayıb.



## Olimpizm

### Boks idman növü ilə bağlı qərar yayda veriləcək

Boksun Tokio-2020 Yay Olimpiya Oyunlarının proqramında saxlanılması məsələsi Beynəlxalq Olimpiya Komitəsinin (BOK) iyunda keçiriləcək iclasında müzakirə olunacaq. Bu barədə BOK-un kommunikasiya üzrə direktoru Mark Adams məlumat verib.

Qeyd edək ki, bugünlərdə BOK-un Lozannada keçirilən iclasında bu məsələyə münasibət bildirilməyib. BOK bir müddət əvvəl Beynəlxalq Həvəskar Boks Assosiasiyası (AİBA) ilə bağlı istintaqın tamamlanmasına qədər Tokio-2020 Olimpiadasında boks yarışlarının keçirilməsi planını "dondurub". BOK, həmçinin beynəlxalq federasiyanın maliyyələşdirilməsi, bilet satışı, təsnifat sisteminin təsdiqi və tətbiqi, sınaq tədbirləri və yarışların yekun qrafikinin hazırlanması üzrə prosesləri də dayandırıb. AİBA-ya Olimpiya obyektləri, rəmzləri və reklam materiallarından istifadə etmək də qadağan olunub.

### BOK-a prezident seçkiləri 2021-ci ildə olacaq

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax yeni müddət üçün beynəlxalq quruma namizədliyini vermək barədə hələ qərara gəlməyib. Bu barədə BOK-un Lozannada keçirilən iclasında təşkilatın rəsmi nümayəndəsi Kristian Klaye məlumat verib.

Məlumat üçün bildirək ki, prezident seçkiləri 2021-ci ildə BOK-un Afina şəhərində keçirilən 137-ci sessiyasında keçiriləcək.

65 yaşlı Tomas Bax 2013-cü ildən BOK-a rəhbərlik edir.

### Paris-2024-ün proqramında yeni idman növü nümayiş etdiriləcək

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) breyk-dans idman növünü olimpiadanın proqramına daxil edib.

İlk dəfə bu idman növü 2024-cü ildə Parisdə keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarının proqramında nümayiş etdiriləcək.

Paris-2024 Olimpiadasında breyk-dansdan əlavə, həmçinin, qayayadırmanma, skeytbordinq və sörfinq də yer alacaq.

Bundan əvvəl breyk-dans üzrə yarışlar Buenos-Ayres-2018 Olimpiadasında təşkil edilib.

# Vüqar Həşimov memorialı start götürdü

(əvvəli 1-ci səhifədə)

Ölkəmizdə hələ ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə 70-dək şahmat məktəbi tikilib. Ümidvaram ki, bu turnir Azərbaycanda xüsusən uşaqların şahmata cəlb edilməsinə böyük dəstək olacaq". Nazir şahmatçılara uğurlar arzulayıb.

SOCAR-ın vitse-prezidenti Xaliq Məmmədov "Shamkir Chess"in 6-cı dəfə təşkilinin ölkədə şahmata göstərilən diqqətin nümunəsi olduğunu deyib.

Vüqar Həşimovun atası Qasım Həşimov artıq ənənəvi hal alan belə mötəbər yarışın keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. O, bunu Azərbaycan xalqının öz oğluna sahib çıxmasının bariz nümunəsi adlandırıb və bütün təşkilatçılara təşəkkürünü çatdırıb: "Vüqar haqqında qısa filmə baxandan və burada toplaşanları görəndən sonra mənə danışmaq çətin olur. Burada məşhur şahmatçıların iştirakı oğlumun dünyada qazandığı hörmətin göstəricisidir".

"Shamkir Chess"in Təşkilat Komitəsinin sədri, Azərbaycan və Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov turnirə yenə də ən güclü şahmatçıların qatıldığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda şahmata münasibət tam fərqlidir. "Dövlət proqramının qəbulu uğurlarımıza təsirsiz ötüşmədi. Kişilərdən ibarət yığmamız 3 dəfə Avropa çempionu oldu. Göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə minnətdaram".

M.Məmmədov turnirdə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) yeni prezidenti Arkadi Dvorkoviçin də iştirakının gözlənildiyini bildirib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov "Shamkir Chess"də hər il ən güclü şahmatçıların iştirakına nail olduqlarını diqqətə çatdırıb. Federasiya rəsmisi bu il də yarışın maraqlı keçəcəyini vurğulayıb. O, dünya çempionu Maqnus Karlsenin ən yüksək reytinq xalını məhz "Shamkir Chess"də topladığını açıqlayıb.

Daha sonra yarışın püşkü atılıb.

Tədbir konsert proqramı ilə davam edib.

Qeyd edək ki, SOCAR, Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyasının dəstəyi, "Synergy Group"un tərəfdaşlığı ilə keçirilən XXII kateqoriyalı Vüqar Həşimov Memorialında bu dəfə də FİDE reytinqində yüksək yerlərdə qərarlaşan 10 güclü qrossmeyster mübarizə aparır. Turnirdə hazırkı dünya çempionu olan norveçli Maqnus Karlsen, Dinq Liren (Çin), Aniş Qiri (Hollandiya), hindistanlı sabiq dünya çempionu Vişvanatan Anand, Rusiya şahmatçısı Aleksandr Qrişuk, dünya kubokunun qalibi, şahmat tacı uğrunda matçın iştirakçısı Sergey Karyakin (Rusiya), FİDE versiyası üzrə dünya çempionu Veselin Topalov (Bolqarıstan) və çexiyalı David Navara iştirak edirlər.

Azərbaycanı Vüqar Həşimov Memorialında "Shamkir Chess" superturnirinin ikiqat qalibi, üçqat Avropa çempionu, rapid üzrə dünya çempionu, FİDE reytinqində beşinci pillədə qərarlaşan Şəhriyar Məmmədyarov (2790), üçqat Avropa çempionu, dünya çempionatının bürünc mükafatçısı Teymur Rəcəbov (2756) təmsil edir.

"Shamkir Chess 2019" superturnirinin birinci turunda ilk turun partiyaları heç-heçə ilə yekunlaşıb. Altıncı dəfə təşkil olunan turnirin birinci turunda Azərbaycan təmsilçilərindən Teymur Rəcəbov ağ fiqurlarla dünya çempionu norveçli Maqnus Karlsenlə, Şəhriyar Məmmədyarov isə qara fiqurlarla Rusiya təmsilçisi Aleksandr Qrişukla xalı yarı bölüb.

Aniş Qiri (Hollandiya) bolqarıstanlı Veselin Topalovla, rusiyalı Sergey Karyakin çinli Dinq Lirenlə, Vişvanatan Anand (Hindistan) isə Çexiya təmsilçisi David Navara ilə sülh bağlayıb. İlk turdan sonra bütün şahmatçıların hesabında 0,5 xal var.

# Gimnastlarımız Dohada yarışıblar




Qətərin paytaxtı Dohada idman gimnastikası üzrə dünya kuboku yarışları keçirilib. Tokio-2020 Yay Olimpiya Oyunlarına təsnifat xarakterli ilin sonuncu kubok yarışında Azərbaycanın qadın və kişi təmsilçiləri də mübarizə aparıblar. Gimnastlarımızdan ən yaxşı nəticə qadın idmançımız Marina Nekrasova göstərib. Belə ki, gimnastımız dayaqlı tullanma hərəkətlərində altıncı yerdən finala vəsiqə qazanıb. Yekun mərhələdə isə hakimlərdən 13,216 xal alan Marina Nekrasova yarışları 8-ci yerdə başa vurub.

# "BP Azərbaycan" şirkəti paracüdo üzrə Bakı Qran-Prisinin rəsmi tərəfdaşı olacaq



"BP Azərbaycan" şirkəti bu il mayın 13-14-də Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışının rəsmi tərəfdaşı olacaq.

Bununla bağlı hər iki qurum arasında keçirilən görüşdə müzakirələr aparılıb.

AMPK-nin prezidenti İlqar Rəhimov bildirib ki, ölkəmizdə idmana, xüsusilə də paralimpiya hərəkatına dövlət səviyyəsində böyük dəstək göstərilir. Prezident İlham Əliyevin paralimpiyaçılarımıza göstərdiyi yüksək diqqət və qayğı qazanılan uğurlarda əksini tapır. "BP Azərbaycan" şirkəti uzun müddətdir ölkəmizdə paralimpiya hərəkatının əsas dəstəkçilərindən biridir. Şirkət Komitənin tədbirlərinin keçirilməsinə, maddi-texniki bazanın gücləndirilməsinə, o cümlədən Göygöl rayonunda uşaq paralimpiya festivalının təşkilinə dəstək verib.

İ.Rəhimov qeyd edib ki, "BP Azərbayan" şirkəti ölkəmizdə korporativ sosial məsuliyyət (KSM) çərçivəsində sosial layihələrə önəm verən nümunəvi təşkilatdır. Şirkət KSM çərçivəsində sosial məsələlərə daim diqqətlə yanaşır. "BP Azərbaycan" şirkəti mayda Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışının rəsmi tərəfdaşı olmaqla bağlı niyyətini bəyan edib.

"BP Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli ölkəmizdə idmana xüsusi qayğı göstərildiyini, Azərbaycanın mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi etdiyini bildirib. Qeyd edib ki, BP şirkəti 2012-ci ildən etibarən beynəlxalq səviyyədə paralimpiya hərəkatına dəstək göstərir. Azərbaycanın paralimpiya çempionları İlham Zəkiyev, Oluxan Musayev və Oleq Panyutin BP şirkətinin atlet səfirləridirlər.

"2012-ci ildə BP şirkətinin dəstəyi ilə İlham Zəkiyevlə bağlı film çəkilmişdi. Qısa müddətdə internetdə 15 milyon baxış toplayan bu film Kann film festivalında mükafata layiq görülüb. Londonun hava limanında Azərbaycanın ikiqat paralimpiya çempionu İlham Zəkiyevin də fotosunun yer aldığı böyük plakat asılıb", - deyə B.Aslanbəyli bildirib.

Sonra BP şirkətinin paralimpiyaçılarımız üçün aldığı idman əlil arabaları təqdim edilib.

# Komandamız qitə çempionatını 1 gümüş və 2 bürünc medalla tamamladı



Azərbaycan karateçiləri İspaniyanın Quadala[ara şəhərində keçirilən 54-cü Avropa çempionatında üç medal qazanıblar

Milli komandanın lideri Rafael Ağayev (75 kq) italiyalı Luici Busadıra uduzaraq gümüş medalla kifayətlənib. Finaladək dörd döyüş keçirən R.Ağayev yarımfinalda zədə aldığı üçün uğur qazana bilməyib.

Komandamızın digər üzvü Asiman Qurbanlı bürünc medal qazanıb. Əvvəlki mərhələlərdə rəqiblərinə xal verməyən A.Qurbanlının yarımfinalda Conatan Horne (Almaniya) ilə görüşü heç-heçə başa çatsa da, hakimlər qələbəni rəqibə veriblər.

Komandamızı kata yarışlarında təmsil edən Roman Heydərov da Qitə çempionatında bürünc medala sahib çıxıb. Təmsilçimiz üçüncü yer uğrunda almaniyalı İlya Smorqunerlə ilə mübarizə aparıb. 25,9 xal yığan idmançımız bürünc medala layiq görülüb.

# Bakıda Avropa Universal Döyüş Federasiyasının Konqresi keçirilib



Martın 30-da ölkəmizdə Avropa Universal Döyüş Federasiyasının Konqresi keçirilib. Konqresdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov, Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general mayor Natiq Əliyev, MOK-un nümayəndəsi Həsənağa Rzayev, Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti Vasiliy Otkidaç, Asiya Universal Döyüş Federasiyasının prezidenti Zokirbekov Yaşnarbek, Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti, Beynəlxalq Universal Döyüş Federasiyasının I vitse-prezidenti Azər Həsənov, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Elçin Cəfərov, Azərbaycan Sambo Federasiyasının prezidenti Ceyhun Məmmədov, Olimpiya çempionları Zemfira Meftahətdinova, Namiq Abdullayev və idman ictimaiyyətinin digər nümayəndələri iştirak edirdilər.



Tədbiri giriş sözü ilə açan AUDF prezidenti Azər Həsənov Konqresin Azərbaycanda təşkil olunmasını əlamətdar hal kimi dəyərləndirdi. Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan federasiya prezidenti respublikamızda universal döyüşün inkişafından və bu sahədə əldə olunan uğurlardan söz açdı. O, qeyd etdi ki, Konqresin Azərbaycana həvalə olunması ölkəmizin dünyada idman ölkəsi kimi tanınmasının nəticəsidir.

Latviya, Litva, Estoniya, Rusiya, Bolqarıstan, Türkiyə, Ukrayna, Rumıniya və digər ölkələrdən olan icraiyyə komitəsi üzvlərinin iştirakı ilə keçirilən Konqresin seçki mərhələsində Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Natiq Əliyev yekdil səsverməyə əsasən Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilib. Qurumun vitse-prezidenti vəzifəsinə İvan Tanyev və Nevzat Varol seçiliblər. Aydın Abdullazadə isə federasiyanın baş katibi təyin olunub.

Avropa Universal Döyüş Federasiyasının yeni prezidenti Natiq Əliyev çıxış edərək ona göstərilən bu etimadı Azərbaycan dövlətinə göstərilən etimadın nəticəsi kimi dəyərləndirib: "Bu etimad, əlbəttə ki, dövlətimizə, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə göstərilən etimaddır. 1997-ci ildə möhtərəm cənab prezident Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə idman sahəsi daha sürətli inkişaf edib və hazırda Azərbaycan dünya idman ailəsinin ən layiqli üzvlərindən biridir. Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. İdmançılarımız dünyanın ən mötəbər yarışlarında ən yüksək nailiyyətlər qazanırlar. Sevindirici haldır ki, son dövrlərdə Azərbaycan nümayəndələri bu və ya digər beynəlxalq qurumlarda layiqincə təmsil olunurlar. Bugünlərdə MOK-un vitse-prezidenti Xəzər İsayev Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti və qurumun icraiyyə komitəsinin üzvü seçilmişdir. O cümlədən, həmyerlimiz Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti vəzifəsində çalışır. Bu uğurlar onu göstərir ki, beynəlxalq aləmdə Azərbaycana yüksək səviyyəli etimad göstərilir. Bildiyiniz kimi, Azərbaycan Universal Döyüş Federasiyası 1999-cu ildən təsis olunub və inkişaf etməyə başlayıb. Hazırda bütün rayonlarımızda federasiyasının nümayəndəlikləri fəaliyyət göstərir və yüzlərlə gənc bu idman növü ilə məşğul olur. Təmsilçilərimiz bu növ üzrə dünya və Avropa çempionatlarında ən yüksək titulları qazanıblar. İndiyədək paytaxtımızda universal döyüş üzrə Avropa və dünya çempionatları, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirlər yüksək səviyyədə keçirilib. Azərbaycan Universal Döyüş Federasiyası dövlət qayğısını, eləcə də Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən göstərilən qayğını həmişə hiss edir. Hazırda federasiyanın əsas məqsədi Beynəlxalq Hərbi İdman Şurasına daxil olmaq və Azərbaycanı orada layiqincə təmsil etməkdir. Azərbaycanda fəaliyyət göstərən bütün güc strukturlarında çalışmışıq ki, bu idman növünü tətbiq edək və buna nail də olmuşuq. Məqsədimiz odur ki, Silahlı Qüvvələrimizdə xidmət edən əsgərlərimiz də bu idman növü ilə məşğul olsunlar. Çünki güclü ordumuzun güclü əsgərləri olmalıdır. Bu gün Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Biz işğal altında olan torpaqlarımızı məhz belə güclü əsgərlərimizlə azad edəcəyik".

MOK-un vitse-prezidenti Xəzər İsayev çıxış edərək ölkəmizə gələn qonaqları salamladı və Natiq Əliyevi AUDF-in prezidenti seçilməsi münasibəti ilə təbrik etdi. O, Azərbaycanda idmanın inkişafından danışdı və respublikamızda universal döyüşün təbliğinin əhəmiyyətini yüksək qiymətləndirdi. "Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin idman sahəsində apardığı uğurlu siyasətin nəticəsidir ki, respublikamızda idman və Olimpiya Hərəkatı inkişaf edib. Ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinə də dövlət tərəfindən diqqət və qayğı göstərilir. Bu qayğının nəticəsidir ki, Azərbaycan dünyada ən nüfuzlu idman ölkələrindən birinə çevrilib. Güc strukturlarında əsas idman növü kimi tətbiq olunan universal döyüşün təbliği və inkişafı yeniyetmə və gənclərin hərbi-vətənpərvər ruhda böyümələri baxımından çox əhəmiyyətlidir. İnanıram ki, Natiq Əliyev Avropa Universal Döyüş Federasiyasının rəhbəri kimi, həm qitə, həm də Azərbaycan idmanının inkişafına öz töhfəsini verəcək".

Konqresdə, həmçinin gündəlikdə dayanan bir sıra vacib məsələlər müzakirə olundu, universal döyüşün Avropada inkişafı ilə bağlı proqram təsdiq olundu.




# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

Azərbaycan Milli Olimpiya Komitəsinin təklif etdiyi OCEP - Olympic Culture and Education Programme - Olimpiya mədəniyyəti və təhsili proqramı Beynəlxalq və Avropa Olimpiya Komitələri tərəfindən bəyənilmiş və onun Avropa Yeniyetmələrinin Olimpiya Festivalı ərəfəsində və dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqram üzrə işlər 2018-ci ildən başlanmışdır. Bu məqalədə proqramın məqsəd və vəzifələri, açılış mərasimindən bəhs olunacaqdır. Proqram Olimpiya təhsilini də özündə birləşdirdiyinə görə Olimpiya tarixi, Olimpiya idealları, olimpizmlə bağlı bir çox məsələlərə də yığcam şəkildə yer veriləcəkdir.

OCEP - Olimpiya Mədəniyyəti və Təhsil Proqramının başlıca məqsədi, bir tərəfdən, Avropa Olimpiya Komitələrinə üzv ölkələrin yeniyetmə və gəncləri arasında qitə xalqlarının mədəniyyətinə, idmanına, həmçinin Olimpiya Hərəkatına aid məlumatları yaymaq, Olimpiya təhsili verməkdir. Digər tərəfdən, məqsəd həm də, idman və mədəniyyətin vəhdətindən istifadə etməklə dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamaq, bir-birini öyrənib təbliğ etmək ruhunu yaymaqdır. Bu prosesin son dərəcə fəal, səmərəli, birbaşa və distant əlaqələr zəminində reallaşması üçün OCEP proqramı və 2019-cu ilin iyulunda Azərbaycanda keçiriləcək Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalı hər cür imkan və şərait yaradır. İyulda qitənin 49 ölkəsindən gələcək 2 mindən çox atlet, 1500-dən artıq rəsmi nümayəndə, jurnalist, fotoreportyor, həmçinin müxtəlif televiziyaların, saytların, eləcə də, sosial şəbəkələrin təmsilçiləri Bakıya gələcəkdir. Bu isə möhtəşəm qarşılıqlı əlaqələrdən, canlı təmaslardan xəbər verir. Azərbaycan Milli Olimpiya Komitəsinin Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu və Azərbaycan Təhsil Nazirliyi ilə birgə təşkil etdiyi OCEP proqramı isə artıq Avropa məktəbləri arasında distant əlaqələri təşkil etmişdir. OCEP buna əsas məqsədini həyata keçirmək üçün qarşıya qoyduğu vəzifələri gerçəkliyə çevirməklə nail olur. OSEP-in qarşıya qoyduğu vəzifələrə aşağıdakılar daxildir: 1) Avropa ölkələrindən və Azərbaycandan 50 məktəb seçməklə onlar arasında ünsiyyət yaratmaq (twinning); 2) qardaşlaşmış (twin) məktəblərin məlumat və təcrübə mübadiləsi üçün xüsusi təyinatlı, multilinqivistik sosial media platformasını yaratmaq və idarə etmək; 3) Bakı-2019 Avropa Yeniyetmələrin Yay Olimpiya Festivalını Azərbaycan və Avropa məktəblərinin vasitəsilə təşviq etmək; 4) Olimpizm və Olimpiya dəyərlərini təbliğ etmək.

Qeyd edək ki, OCEP proqramının tərəfdaşları da günbəgün artmaqdadır. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi öz işini daim Gənclər və İdman Nazirliyi, milli idman federasiyaları ilə birgə qurur. Mədəni proqramların həyata keçirilməsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı ilə sıx əməkdaşlıq də həmişə öz bəhrəsini vermişdir. OCEP proqramına da belə hesab edirik ki, bütün tərəfdaşlarımız töhfələrini verəcəkdir.

OCEP-in 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu: 1) müəyyənləşdirmə və əlaqələndirmə; 2) şəbəkələşmə və təlimatlandırma; 3) təbliğat və təşviqat.

Birinci mərhələdə nəzərdə tutulmuş işlər tam başa çatmışdır. Bu mərhələdə layihə üçün 2 qrup; a) Avropa ölkələrindən və b) Bakıdan olmaqla ümumilikdə, 100 məktəb seçilməsi nəzərdə tutulurdu. Seçim başa çatdıqdan sonra Azərbaycan və Avropa məktəbləri bir-biri ilə əlaqələndirilməli idi. Bakıdan seçilmiş hər bir məktəbə bir Avropa ölkəsi təhkim edilirdi.

2018-ci ildən başlayaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Olimpiya Festivalında iştirak edəcək ölkələrin səfirlikləri və Milli Olimpiya Komitələri ilə mütəmadi yazışma, əlaqə, müzakirə və razılaşmalar əsasında məktəblərin seçimi üçün bütün hazırlıq işləri görüldü. Fevralın 6-da Milli Olimpiya Komitəsində OCEP - "Olimpiya mədəniyyəti və təhsil" proqramında iştirak edəcək Bakı məktəblərinin direktorları ilə görüş keçirildi. Görüşdə 49 məktəbin direktoru, Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, MOK-un məsul şəxsləri və proqramın işçi heyəti iştirak etdi.

MOK-un marketinq şöbəsinin rəisi Mehman Kərimov, Təhsil Nazirliyinin tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri Vasif Məmmədov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəisi Rəşad Tağıyev proqram çərçivəsində həyata keçiriləcək işlərdən, məktəblər üçün nəzərdə tutulan fəaliyyətdən danışdılar. Sonra MOK-un əməkdaşı Səkinə Vəliyeva @OCEP2019 ünvanlı sosial media platformasının təqdimatını keçirdi. Proqramın ekspertlər qrupu və bu qrupun vəzifələri barədə məlumat verildi. Tədbirin sonunda püşkatma ilə hər bir Bakı məktəbinin hansı ölkəyə təhkim olunması müəyyənləşdirildi.

OCEP-in şəbəkələşmə və təlimatlandırma işlərinə start verildi. İlk növbədə seçilmiş məktəblərin layihə üçün yaradılmış xüsusi sosial media platforması vasitəsilə mərkəzləşmiş şəbəkəyə qoşulması təmin olundu. Beləliklə, 2 dildə (Azərbaycan və ingilis) fəaliyyət göstərəcək virtual şəbəkə vasitəsilə məktəblərin bir-biri ilə, həmçinin xarici aləmlə əlaqə və ünsiyyəti bərpa olundu. Milli Olimpiya Komitəsi bu şəbəkə vasitəsilə AYOF və Olimpiya hərəkatına dair təlimatları, həmçinin Olimpiya tədrisi ilə bağlı məlumatları yaymaq işinə başlamış oldu.

Fevralın 21-də Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalının başlanmasına 150 gün qalması münasibətilə "Hilton" otelində Olimpiya mədəniyyəti və təhsil proqramının təqdimatı keçirildi.

Tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev, dövlət və hökumət rəsmiləri, həmçinin Avropa ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin təmsilçiləri iştirak etdilər.

Tədbirdə, əvvəlcə, Avropa Yeniyetmələrinin XV Yay Olimpiya Festivalına, Olimpiya mədəniyyəti və təhsil proqramına həsr olunmuş film nümayiş etdirildi.

Tədbirin rəsmi hissəsi OCEP-in təşəbbüsçüsü olan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadənin çıxışı ilə başlandı. O, tədbirin Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalına 150 gün qaldığını qeyd etdikdən sonra Olimpiya Hərəkatı tarixində yeniyetmələrin qitə festivalı üçün yeni layihədən söhbət açaraq qeyd etdi ki, Olimpiya mədəniyyəti və təhsil proqramı Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri ilə birgə hazırlanmışdır. Proqram BOK-un Olimpiya Həmrəyliyi fondunun, eləcə də, Avropa Olimpiya Komitəsinin dəstəyi ilə həyata keçirilir. Layihənin böyük əhəmiyyət kəsb etdiyini və qitədə böyük maraq doğurduğunu, Avropanın 25 ölkəsinin artıq bu layihəyə qoşulduğunu vurğulayaraq dedi: "Buna oxşar ilk tədbir 2010-cu ildə Yeniyetmələrin Sinqapurda təşkil olunmuş Olimpiya Oyunlarında olmuşdur. Ancaq Avropa festivalları tarixində belə bir layihə ilk dəfə həyata keçirilir. Bununla əlaqədar ekspert qrupu yaradılıb. Hesab edirəm ki, xarici ölkələrin diplomatik nümayəndələri öz ölkələrində bu proqramın yayılmasına, gənclərin bu layihəyə cəlb edilməsinə yaxından dəstək verəcəklər".

Gənclər və idman naziri Azad Rəhimov çıxışında Azərbaycanın mötəbər idman tədbirlərinə, o cümlədən birinci Avropa, IV İslam Həmrəyliyi oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, Formula 1 yarışlarına, Avropa, dünya çempionatlarına yüksək səviyyədə ev sahibliyi etdiyini diqqətə çatdırdıqdan sonra Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalının da ölkəmizdə böyük uğurla keçəcəyinə əmin olduğunu bildirərək demişdir ki, festivalın başlanmasına 150 gün qalır. Bu qısa müddətdə görülməli çox iş var. Bu gün daha bir önəmli hadisə baş vermişdir: Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalının talismanları - Cırtdan və Bəbir ictimaiyyətə təqdim edilmişdir. Seçilmiş talismanlar ictimaiyyət arasında böyük maraqla qarşılanıb. İnanıram ki, talismanlar 25 illik ənənəsi olan kompleks mötəbər idman yarışında - Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalında idmançıları qələbələrə ruhlandıracaq, azarkeşlərə xoş anlar bəxş edəcəkdir. Çıxışının sonunda nazir Avropa Olimpiya Komitəsinə üzv olan 50 ölkədən 49-nun Festivalda iştirakını artıq təsdiq etməsi barədə məlumat vermişdir.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan dövlətinin ölkəmizdə digər sahələrlə yanaşı, idmana da yüksək diqqət və qayğı göstərdiyini qeyd edərək, Olimpiya mədəniyyəti və təhsil proqramının Azərbaycanda idmanın və təhsilin təbliğində mühüm rol oynadığını vurğulamış, bu proqramın əsas məqsədinin Avropa ölkələrində yeniyetmə və gənclər arasında əməkdaşlığın inkişaf etdirilməsi, idmanın, təhsilin, mədəniyyətin, eləcə də Olimpiya Hərəkatının təbliği olduğunu bildirmişdir. Azərbaycan məktəbləri ilə Avropanın digər ölkələrinin məktəbləri arasında qırılmaz bağ yaradacaq bu proqram üzrə işlərin gedişindən danışan nazir demişdir: "Layihə çərçivəsində seçilən 49 məktəbin hər biri Avropanın bir ölkəsinə təhkim olunub. Bakı məktəbləri təhkim olunduqları Avropa ölkəsinin mədəniyyəti, tarixi, milli və müasir idman növlərini öyrənəcək, həmçinin qardaşlaşmış məktəblərə Azərbaycan mədəniyyəti, incəsənəti, idmanı haqqında məlumat vermək imkanı əldə edəcəklər. Festivalda üç minə yaxın könüllünün iştirak edəcəyini bildirən Ceyhun Bayramov bu mötəbər idman yarışının ölkəmizdə könüllülük hərəkatının inkişafına da müsbət təsirini vurğulayıb. Təqdimat mərasimi konsert proqramı ilə davam edən bu tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin təşəbbüsü, Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun dəstəyi ilə Bakıda rəqəmsal media və kommunikasiya mövzusunda seminara gəlmiş xarici qonaqlar da iştirak edirdi. Azərbaycan, Türkiyə, Rusiya, Albaniya, Moldova, Ukrayna, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Serbiya və Belarus Milli Olimpiya Komitələrinin media və kommunikasiya mütəxəssislərinin qatıldığı seminarın məqsədi sosial media platformaları vasitəsilə Milli Olimpiya Komitələrinin həyata keçirdiyi fəaliyyətləri və tədbirləri təbliğ etməyin yollarını öyrənmək, hazırkı trendlərin istifadəsi, hər bir platformaya uyğun strategiyanın hazırlanmasında innovativ üsulların tətbiq edilməsidir. Proqramın mühazirəçisi beynəlxalq media eksperti, İdman Akademiyasının "İdman jurnalistikası" magistr proqramının direktoru Den Meyson olmuşdur. Qeyd edək ki, seminara gəlmiş Milli Olimpiya Komitələrinin media və kommunikasiya mütəxəssisləri OCEP proqramı ilə yaxından tanış olmuş, bu layihə haqqında materialları öz ölkələrində müvafiq sosial şəbəkələrə daxil edəcəklərini, Bakı məktəbləri ilə qardaşlaşan məktəblərin layihə çərçivəsindəki işlərinə dəstək verəcəklərini söyləmişlər.





OCEP proqramının üçüncü mərhələsi tədris, təbliğat və təşviqat işlərini, həmçinin seçilmiş məktəblərdə əyləncəli idman yarışlarını əhatə edəcəkdir. Bu mərhələdə məktəblər sosial şəbəkə üzərindən məlumat və təcrübə mübadiləsi aparmaqla yanaşı, həm də öz məktəblərində, icmalarında və şəhərlərində Olimpiya İdman Festivalları təşkil edəcəkdir. Bu festivallar təkcə Olimpiya dəyərlərinin deyil, həm də AYOF-u, eyni zamanda oyunlarda iştirak edən 49 ölkənin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, idman və Olimpiya hərəkatının təbliğinə xidmət edəcəkdir.

Təhsil prosesində şagirdlər Olimpiya Hərəkatının əsaslarını, onun tarixini, öz ölkələri, eləcə də digər Avropa ölkələrinin bu hərəkatda iştirakını öyrənəcəklər. Hər məktəb öz ölkəsi ilə bağlı əldə etdiyi bilikləri təhkim olunduğu ölkənin müvafiq məktəbi ilə paylaşacaqdır. Biliklərin mübadiləsi qardaşlaşmış məktəblər arasında təhsil və mədəniyyət körpüsü yaradacaqdır. Bu məktəblər mərkəzləşdirilmiş sosial şəbəkə vasitəsilə bir-birilə müntəzəm ünsiyyət quracaqlar. Həmin prosesdə həm Azərbaycan, həm də Avropa ölkəsinin mədəniyyəti, tarixi, milli və müasir idman növləri və s. öyrəniləcəkdir. Sosial şəbəkə digər məktəblərin də prosesə qoşulması ilə genişlənəcək, daha çox bilik və dəyərləri əhatə edəcəkdir. Məktəblərarası mübadilə nəticəsində əldə olunan bütün bilik və məlumatlar proqramın yekununda Bakıda Olimpiya Mədəniyyəti və İdman Şəhərciyində sərgilənəcəkdir. OCEP çərçivəsində məktəblilərdə bir sıra sosial, idman və digər bacarıqların inkişafına təsir göstərəcək aşağıdakı fəaliyyətlər həyata həyata keçiriləcəkdir: 1) sosial bacarıqların inkişafı; 2) sağlam həyat tərzi; 3) sosial məsuliyyət; 4) çempionlarla söhbət; 5) incəsənət və mədəniyyət tədbirləri; 6) Olimpiya mədəniyyət və təhsil festivalları. Təbii ki, qeyd edilən fəaliyyət istiqamətləri yalnız sadalananlarla məhdudlaşmayacaq, tərəfdaşların, ekspertlərin, müəllim və mütəxəssislərin, həmçinin şagirdlərin təşəbbüsləri ilə yeni-yeni tədbirlərin sayı da artacaqdır.

Qardaşlaşmış məktəblərdə həm idman, həm də müxtəlif sahələrdə uğur qazanmış insanlar, görkəmli şəxslərlə tok-şou üslubunda söhbətlər təşkil ediləcəkdir ki, məktəblilər bu şəxslərin uğur hekayələrini dinləyəcək və öyrənəcəklər.

OCEP çərçivəsində məktəblər aid olduqları icmaların dəstəyi, həmçinin iştirakı ilə müxtəlif idman, təhsil və mədəniyyət festivalları təşkil edəcəklər. Bu tədbirlərdə də idman və Olimpizm təşviq olunmaqla yanaşı, məktəblilərdə təşkilatçılıq, liderlik, komandada iş və bu kimi bacarıqlar da formalaşacaqdır.

OCEP-in yekun tədbiri olaraq Bakı şəhəri Dənizkənarı Milli Parkında Olimpiya Mədəniyyət və İdman Şəhərciyinin yaradılması nəzərdə tutulmuşdur. Şəhərcikdə quraşdırılacaq 49 çadırın hər biri Avropanın bir ölkəsini təmsil edəcəkdir. Bu çadırlar qardaşlaşmış məktəblərin təşkilatçılığı ilə müvafiq ölkənin mədəniyyəti, idmanı, Olimpiya Hərəkatı, milli adət-ənənələri haqqında məlumat verən bir sərgi zalına çevriləcəkdir. Beləliklə, Bakı-2009 AYOF dövründə fəaliyyət göstərəcək Şəhərcikdə qonaqlar və yerli sakinlərə Avropa ölkələrinin mədəniyyəti, tarixi, incəsənəti, idman və Olimpiya ənənələri ilə yaxından tanış olmaq imkanı qazanacaqlar. Şəhərcikdə Yeniyetmələrin Avropa Yay Olimpiya Festivalına həsr edilmiş ayrıca çadır quraşdırılacaq və orada həm əvvəlki, həm Bakı, həm də növbəti AYOF barədə məlumatlar əksini tapacaq. Bu çadırda Bakı-2019-da iştirak etmiş idmançılarla təmasda olmaq imkanı yaradılacaqdır.

Bakının bir sıra məktəblərində OCEP çərçivəsində ilk tədbirlər artıq təşkil olunmuşdur. Növbəti yazımız bu tədbirlərə həsr olunacaqdır.

***Cəmaləddin Rəhmanov,***
***MOK-un informasiya və nəşriyyat idarəsinin müdiri***




## Azərbaycan güləş yığmasının açıq məşqi

Olimpiya Güləş Mərkəzində Avropa çempionatına hazırlaşan sərbəst və yunan-Roma güləşi üzrə yığmalarımızın mətbuat üçün açıq məşqi keçirilib. Hazırlıq prosesini canlı izləyən Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbəri Namiq Əliyev məşqdən sonra qitə birinciliyində iştirak edəcək idmançıların adlarını açıqlayıb. AGF rəhbəri daha sonra brifinqdə jurnalistlərin suallarını cavablandırıb. Namiq Əliyev deyib: “Stabil heyətlə Avropa çempionatında təmsil olunacağıq. Ümidvarıq ki, çox uğurlu çıxış edəcəyik. Azərbaycan yığması hər zaman dünya güləşində öz sözünü deyib. Hər zaman olduğu kimi, bu yarışdan da çox yüksək nəticələr gözləyirik. Ancaq Avropa çempionatına həm də sınaq kimi baxırıq. Çünki bu il əsas yarışımız Qazaxıstanın paytaxtı Nur-Sultanda (keçmiş Astana) keçiriləcək dünya çempionatıdır. Bir neçə idmançımızı qorumaq qərarına gəldik və bu üzdən Avropa çempionatında iştirakına lüzum görmədik. Çünki bizim üçün əsas dünya çempionatıdır. Mundial həm də Olimpiadaya lisenziya verən ilk yarış olacaq. Yeri gəlmişkən, gələn il Avropa Olimpiya Təsnifat turnirini Bakıda keçirmək üçün danışıqlar aparırıq. Müəyyən nəticələr əldə etmişik. İnşallah, ümid edirəm ki, bu yarışın təşkilatçılığı bizə həvalə olunacaq. Buna baxmayaraq, bizim üçün dünya çempionatı prioritet təşkil edir. Toğrul Əsgərov güləşdən kənar qalmayıb. Artıq məşqlərə başlayıb. Doğma şəhəri Gəncədə şəxsi məşqçisi Elçin Zeynalovun rəhbərliyi altında hazırlığa start verib. Çox güman, biz onu dünya çempionatında görəcəyik”.

* * *

Martın 29-30-da Portuqaliyanın Çaveş şəhərində çimərlik güləşi üzrə Dünya Seriyası turniri keçirilib. Ölkəmizi məşqçi Nazim Əlicanovun rəhbərliyi altında 4 güləşçimiz təmsil edib. Pənah İlyaslı (70 kq) portuqaliyalı Nuno Enrike Lopes Fraqa, braziliyalı Joao Viktor Dos Santos Silva, rumıniyalı Stefan Yonut Koman və yunan Niko Aruzmanidisə qalib gələrək finala yüksəlib. Son görüşdə gürcü Levan Kelexşaşviliyə uduzan həmyerlimiz gümüş medalla kifayətlənib.

İbrahim Yusubov (80 kq) iranlı Omid Şabanali Jelodar, rumınıyalı Vasile Madalin Minzala, portuqaliyalı Edmilson Brito Qomes və yunan Georgios Kuluçidisi üstələyərək finala vəsiqə qazanıb. Son qarşılaşmada gürcü David Xutsişviliyə məğlub olan təmsilçimiz ikinci yeri tutub. Kənan Əliyev (90 kq) türk Murat Özkana qalib gəlsə də, Yunanıstan güləşçilərinə - Xristos Samartsidis və Qriqorios Kriaridisə uduzaraq fəxri kürsüdən kənarda qalıb. Oyan Nəzəriani (+90 kq) gürcü Mamuka Kordzayaya məğlub olsa da, ispan Xose Kuba Vaskesə, Gürcüstanın digər təmsilçisi Rolandi Andriadzeyə, türk Baki Şahinə və yunan Yannis Karqiotakisə gücünü göstərərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Beləliklə, yığmamız Portuqaliyada 1 qızıl və 2 gümüş medala sahib olub. Bu nəticə ilə yığmamız 65 xal toplayaraq, komanda hesabında 1-ci yeri tutub. Gürcüstan (62) ikinci, Yunanıstan (50) isə üçüncü olub.

Növbəti analoji yarış mayın 10-11-də Braziliyanın Rio de Janeyro şəhərində keçiriləcək. Xatırladaq ki, bu yarışlar oktyabrda ABŞ-da keçiriləcək Dünya Çimərlik Oyunlarına lisenziya xalları verir.

* * *

Gürcüstanın Batumi şəhərində dünya çempionu Muxran Vaxtanqadzenin şərəfinə gənclər arasında yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib.

Məşqçilər Akif Əliyev və Zöhrab Abbasovun rəhbərliyi altında ölkəmizi təmsil edən komandamız 5 medal qazanıb. Niyaz Ərzumanov (67 kq) gümüş, Həsən Məmmədli (60 kq), Laçın Vəliyev (87 kq), Tarış Əbilov (97 kq) və Xasay Yusubov (130 kq) isə bürünc medala sahib olub. Böyük məşqçi Nurəddin Rəcəbovun rəhbərlik etdiyi gənclərdən ibarət yığmamızın əsasən ehtiyat qüvvəsi sayılan bu heyətin 9 ölkənin təmsil olunduğu yarışda əldə etdiyi 5 medalı yüksək nəticə kimi qiymətləndirmək olar.

* * *

Güləş yığmalarımız aprelin 8-dən 14-dək Rumıniyanın paytaxtı Buxarestdə keçiriləcək Avropa çempionatının son hazırlığına start veriblər.

Sərbəst və yunan-Roma güləşi üzrə millilərimiz Olimpiya Güləş Mərkəzində təlim-məşq toplanışına başlayıb.

Qadınlardan ibarət yığmamız isə sonuncu toplanışı Ukraynada keçir. Hazırlıq aprelin 8-dək davam edəcək. Komandamız Buxarestə də Kiyevdən yollanacaq.

Qeyd edək ki, qitə birinciliyinin reqlamentinə əsasən, aprelin 8-10-da sərbəst, 10-12-də qadın, 12-14-də isə yunan-Roma güləşçiləri mübarizə aparacaqlar.

## Velosipedçilər Federasiya kubokunda yarışıblar



Azərbaycan Velosiped İdmanı Federasiyasının 2019-cu il üçün müəyyənləşdirdiyi təqvim planına əsasən qrup ötüşməsi üzrə Federasiya Kubokunun 2-ci mərhələsi keçirilib. Veloparkda təşkil edilən yarışda klub və cəmiyyətlərin 70-ə yaxın idmançısı iştirak edib. 15 yaşadək qızların 9,6 km məsafəyə mübarizəsi 7 saylı Olimpiya Velosiped Məktəbinin üzvü İradə Əbdürəhmanovanın qələbəsilə başa çatıb. Bu məktəbin digər nümayəndəsi Əli Xabayev isə 15 yaşadək oğlanların 9,6 km məsafəyə yarışında çempion olub. 17 yaşadək qızlar arasında da 7 saylı Olimpiya Velosiped Məktəbinin təmsilçisi 1-ci olub - Viktoriya Sidorenko 14 km məsafəni hamıdan tez qət edib. 22,4 km məsafəyə yarışan 17 yaşadək oğlanlar arasında “Neftçi” İdman Klubu İctimai Birliyinin yetirməsi Nofəl Nuriyev 1-ci, Respublika Olimpiya Velosiped Məktəbinin təmsilçisi Nikita Sıtov 2-ci olub. 3-cü yerin sahibini isə fotofinişlə də müəyyənləşdirmək mümkün olmayıb - belə ki, 7 saylı Olimpiya Velosiped Məktəbi və Respublika Olimpiya Velosiped Məktəbinin üzvləri Mustafa Muxtarlı və Kamran Mirzəxanov finiş xəttini eyni anda keçdikləri üçün Hakimlər Kollegiyasının qərarına əsasən, hər iki velosipedçi 3-cü yerə layiq görülüb.

Gənc qızların 22,4 km məsafəyə yarışı Respublika Olimpiya Velosiped Məktəbinin üzvü Elfanə Camalovanın qələbəsilə yekunlaşıb. Onun komanda yoldaşı Nəcəf Bağırov isə gənc oğlanlar arasında 28 km məsafəni hamıdan tez qət edib.

Fərqlənən idmançılar diplom və qiymətli hədiyyələrlə təltif ediliblər.

## “Raquf Orucov Kuboku” uğrunda III beynəlxalq turnir




Aprelin 16-17-də Bakı İdman Sarayında Aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Raquf Orucovun və digər şəhidlərimizin xatirəsinə həsr edilən III beynəlxalq “Raquf Orucov Kuboku” uğrunda cüdo turniri keçiriləcək. Ənənəvi turnir “Judo Club 2012” idman klubunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunacaq.

Turnirdə 21 yaşadək cüdoçulardan ibarət komandalar iştirak edəcək. Yarışlarda Bakını və bölgələri təmsil edən komandalarla yanaşı, qonşu ölkələrdən dəvət olunan bir neçə klubun da iştirakı planlaşdırılır.

Şəhidlərimizin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq keçirilən ənənəvi turnirin məqsədi vətənpərvərlik hissinin və döyüş ruhunun gənclərə aşılanması, onların Vətənin müdafiəsinə hazırlıq səviyyəsinin artırılması, idmançılar arasında dostluq və yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsidir.

* * *

Aprelin 6-7-də İtaliyanın Liqnano şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışları keçiriləcək.

Qitə kuboku yarışlarında ölkəmizi 17 cüdoçu təmsil edəcək.

Turnirdə kişi cüdoçularımız bütün çəki dərəcələrində çıxış edəcəklər. Qızlar arasında keçirilən yarışlarda isə idmançılarımız yalnız 48, 57 və 63 kiloqram çəki dərəcələrində tatamiyə çıxacaqlar.

Qeyd edək ki, Avropa kuboku yarışlarında 35 ölkədən 571 cüdoçu iştirakını təsdiqləyib.

* * *

Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə “Ruslan 93” idman klubunda yeniyetmə cüdoçular, məşqçilər və hakimlər üçün seminar keçirilib.

Seminar federasiyanın hakimlər komitəsinin nümayəndələri, beynəlxalq dərəcəli referilər tərəfindən aparılıb. Seminarda cüdonun qaydaları barədə ətraflı məlumat verilib. Beynəlxalq dərəcəli hakim Mətin Rəhimli cüdonun yeni texnika və qaydalarını həm nəzəri, həm də praktiki olaraq iştirakçıların diqqətinə çatdırıb.

## *Beynəlxalq Qran-pri turnirinə həsr olunmuş yarış*



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) təşkilatçılığı ilə peyntbol yarışı keçirilib.

Yarışda AMPK, “Qarabağ qaziləri”, “Bir Könüllü” təşkilatının və “ASAN Radio”nun komandaları iştirak ediblər.

Yarış mayda “Ruhun zəfəri” devizi altında Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri turnirinə həsr olunub. Dörd komandanın mübarizəsində birinci yeri “Qarabağ qaziləri” kollektivi tutub. Digər yerlərdə isə müvafiq olaraq, AMPK-nın, “Bir könüllü” təşkilatının və “ASAN Radio”nun komandaları qərarlaşıblar.

## İdman rəqsləri üzrə beynəlxalq müsabiqə

Aprelin 6-da Latviyanın Liepai şəhərində “Dzintarlase - 2019” beynəlxalq idman rəqsləri müsabiqəsi keçiriləcək.

Beşinci dəfə keçiriləcək müsabiqədə Azərbaycan, Rusiya, Litva, Belarus, Makedoniya, Estoniya, Finlandiya, İsveç, Almaniya, Gürcüstan, Polşa, İtaliya, Filippin və Latviyadan olan idmançılar iştirak edəcək.

Müsabiqə ən kiçik yaşlı iştirakçıların rəqsləri ilə başlayacaq. İdmançıların ustalığını beynəlxalq dərəcəli hakimlər qiymətləndirəcəklər.

## *“Azərreyl”dən növbəti çempionluq*



“Azərreyl” voleybol klubu növbəti dəfə Azərbaycan çempionu olub.

Martın 28-də qadın voleybolçular arasında ölkə çempionatının növbəti turunun oyunları keçirilib.

İlk olaraq meydana “Azərreyl” və “Lokomotiv” komandaları çıxıblar. Gərgin idman mübarizəsi şəraitində keçən görüş “Lokomotiv”in 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Məğlubiyyətə baxmayaraq hesabında 28 xal olan “Azərreyl” komandası yarışın sonuna iki tur qalmış çempionluğunu rəsmiləşdirib. “Lokomotiv”in isə hesabında 20 xal var.

Günün digər oyununda AVF komandası “Abşeron”a 3:2 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, “Abşeron” 7 xalla turnir cədvəlində üçüncü, AVF isə 5 xalla dördüncü pillədə yer alıb.

## *Tələbələrin badminton yarışları yekunlaşıb*

“Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə 2019-ci ilin mart-may aylarında ali təhsil müəssisələri tələbələri arasında XIV Respublika Universiadası keçirilir.

Universiadanın təqvim planına əsasən idmanın 10 növü - şahmat, dama, stolüstü tennis, basketbol , badminton, sərbəst güləş, yunan-Roma güləşi, cüdo, atletika və voleybol (qızlar və oğlanlar) üzrə yarışlar keçirilir. Universiadaya daxil olan badminton (oğlanlar) üzrə yarış Azərbaycan Dövlət İqtisad Universitetinin idman zalında keçirilib.



9 komandanın iştirak ediyi oğlanların yarışında birinci yeri Azərbaycan Texniki Universitetinin komandası tutub. Azərbaycan Tibb Universitetinin kollektivi ikinci, Bakı Dövlət Universitetinin komandası isə üçüncü yerdə qərarlaşıblar.

Qızların iştirak etdiyi badminton yarışlarında da 9 komanda qalib adı uğrunda mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən yarışda birinci yeri Azərbaycan Dövlət İqtisad Universitetinin komandası tutub. Bakı Dövlət Universiteti və Azərbaycan Tibb Universitetinin komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

# Mart

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında

### Atletika

Şotlandiyanın paytaxtı Qlazqoda atletika üzrə 35-ci qış Avropa çempionatı keçirilib. Yarışda iştirak edən atletika üzrə yığmamız yekun sıralamada onuncu pillədə qərarlaşıb. İdmançımız Nazim Babayev üçtəkanla tullanma yarışında ən yaxşı nəticə göstərərək qızıl medal qazanıb. O, yarışın sonuncu günündə dördüncü cəhddə 17,29 metr nəticə göstərərək Avropa çempionu adına layiq görülüb.

Digər idmançımız Zəkiyyə Həsənova isə 60 metr məsafəyə qaçış yarışında uğur qazana bilməyib.

Avropa çempionatında iştirak edən komandaların qazandıqları medallara görə reytinq cədvəli müəyyənləşib. N.Babayevin qazandığı qızıl medal komandamızın Almaniya, Fransa, Ukrayna, Belarus, İsveç, Türkiyə kimi güclü komandaları qabaqlayaraq 10-cu pillədə qərarlaşmasını təmin edib.

### Cüdo

Türkiyənin Antalya şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışı keçirilib. Cüdoçularımız Türkiyədə 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar. Qızların yarışında 57 kq çəki dərəcəsində çıxış edən Aytac Qardaşxanlı bütün rəqiblərinə qalib gələrək Antalya turnirinin çempionu olub. Oğlanların mübarizəsində Kamran Süleymanov (55 kq), Nahid İsmayılov (66 kq) və Elcan Hacıyev (73 kq) yalnız finalda uduzaraq gümüş medala sahib çıxıblar. Şükran Zamanlı (55 kq) isə bürünc medala layiq görülüb.

* * *

Polşanın paytaxtı Varşavada kişi cüdoçular arasında Avropa açıq kuboku yarışı keçirilib. Cüdoçularımızdan Oruc Vəlizadə qızıl, İbrahim Əliyev gümüş medala layiq görülüblər. Komandamızın digər üzvü Şahin Qəhrəmanov isə bürünc medala sahib olub.

Beləliklə, Azərbaycan cüdoçuları Avropa kubokunda 3 medal qazanıblar.

### Güləş

Yakutskda gənc sərbəst güləşçilər arasında Roman Dmitriev Memorialı keçirilib.

Ənənəvi yarışda ölkəmizi gənclərdən ibarət yığmamızın məşqçisi Nazim Əlicanovun rəhbərliyi altında 5 idmançı təmsil edib. Onlardan Asxab Həmzətov (92 kq) gümüş, Abubakr Abakarov (79 kq) isə bürünc medal qazanıblar.

* * *

Sərbəst güləş üzrə Azərbaycan milli komandası Serbiyanın Novi Sad şəhərində keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatında dördüncü olub. Qitə birinciliyini 4 bürünc medalla başa vuran sərbəst güləşçilərimiz 72 xal toplayıblar.

Birinci pillədə 209 xalla Rusiya millisi qərarlaşıb. 132 xalla Türkiyə ikinci, Ukrayna isə 110 xalla üçüncü pillədə yer alıblar.

İyirmi altı ölkədən idmançıların mübarizə apardığı çempionatda sərbəst güləşçilərin yarışında Əsgər Məmmədəliyev (61 kq), Davud İbrahimov (70 kq), Hacımurad Məhəmmədsəidov (86 kq) və Şamil Zubairov (92 kq) bürünc medal qazanıblar.

* * *

Ukraynanın Poltava şəhərində yeniyetmələr arasında qadın güləşi üzrə beynəlxalq turnir keçirilib. Yığmamız bu yarışda parlaq çıxışı ilə fərqlənib. Böyük məşqçi Həsrət Məmmədyarovun və məşqçi Solmaz Həşimzadənin rəhbərliyi ilə Poltavada ölkəmizi təmsil edən beş güləşçidən dördü fəxri kürsüdə yer alıb.

Nigar Mirzəzadə (65 kq) qızıl, Gültəkin Şirinova (49 kq) və Elnurə Məmmədova (53 kq) gümüş, Jalə Əliyeva (61 kq) isə bürünc medal qazanıblar.

### Gimnastika

Portuqaliyanın Maya şəhərində akrobatika gimnastikası üzrə dünya kuboku yarışları keçirilib. Yarış 2019-cu ildə yığma komandamızın qatıldığı ilk turnir olsa da, gimnastlarımız mövsümə uğurla start veriblər.

Qarışıq cütlüklərin yarışında çıxış edən Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi turniri bürünc medalla başa vurublar. Birinci pillədə Rusiya, ikinci yerdə isə Belarus təmsilçiləri qərarlaşıblar. Digər qarışıq cütlüyümüz Nurcan Cabbarlı və Ağasif Rəhimov isə finala adlaya bilməyiblər.

Kişi cütlüyümüz Seymur Cəfərov və Murad Əkpərov da final mərhələsində çıxış ediblər. Lakin proqramların icra edərkən yol verdikləri səhv onları medaldan uzaq salıb və cütlüyümüz sıralamada beşinci olub.

Kubok yarışlarında cütlüklərimizlə yanaşı, ilk dəfə olaraq böyüklər proqramında çıxış edən qadınlardan ibarət qrupumuz da iştirak edib. Ləman Məmmədova, Emiliya Nəzərli və Raziyə Seyidlinin ilk təcrübələri olmasına baxmayaraq, qızlarımız finala düşməyi bacarıblar və yarışı yeddinci olaraq bitiriblər.

* * *

Bakıda idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Dünya kuboku yarışları keçirilib. Milli Gimnastika Arenasında keçirilən yarışlarda dünyanın 41 ölkəsindən 121 kişi və 49 qadın gimnast medallar uğrunda mübarizə aparıb. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışın iştirakçıları arasında xeyli sayda Olimpiya mükafatçısı, dünya və Avropa çempionatının medalçıları olub. Ölkəmizi bu yarışlarda Murad Ağarzayev, İvan Tixonov, Nikita Simonov və qadın idman gimnastımız Marina Nekrasova təmsil ediblər. Azərbaycan gimnastı Nikita Simonov Dünya kuboku yarışlarının gümüş medalını qazanıb. Gimnastımız halqalar ilə yarışlarda hakimlərdən 14,800 xal alaraq ikinci olub. Azərbaycan gimnastı Murad Ağarzayev 13,800 xalla altıncı olub.

### Taekvondo

Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət yığma komandası Hollandiyanın Eyndhoven şəhərində təşkil olunan "Dutch Open" beynəlxalq turnirində uğurlu çıxış edib. Yarışda milli komandamızın idmançıları səkkiz medala sahib olublar.

Sayca 46-cı olan "G1" kateqoriyalı turnirdə mübarizəyə qoşulan Cavad Ağayev (63 kq) və Fəridə Əzizova (67 kq) bütün rəqiblərinə qalib gələrək yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Taekvondoçularımızdan Qaşım Maqomedov (58 kq) və Radik İsayev (87 kq-dan yuxarı) isə yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar.

Digər təmsilçilərimiz Bəhruz Quluzadə (54 kq), Məhəmməd Məmmədov (68 kq), Ramin Əzizov və Payam Qobadi Oğaz (hər ikisi 87 kq) yarışı yarımfinal mərhələsində başa vuraraq bürünc medalla kifayətləniblər.

### Boks

Rusiyanın Vladiqafqaz şəhərində 22 yaşınadək kişi və qadın boksçular arasında Avropa çempionatı keçirilib. Turnirdə Azərbaycan millisinin lideri Məhəmməd Abdullayev (+91) Avropa çempionu adına layiq görülüb. Boksçumuz həlledici görüşdə almaniyalı Viktor Yurka 5:0 hesabı ilə qalib gələrək qızıl medal qazanıb. Komandamızın digər üzvləri Rüfət Hüseynov (49 kq) və Cəbrayıl Yelekov (81 kq) bürünc medala sahib olublar.

Beləliklə, Azərbaycan millisi qitə birinciliyini 1 qızıl və 2 bürünc medalla başa vurub.

Yekunda, kişilərdən ibarət yığmamız komanda hesabında 38 ölkə arasında dördüncü yerdə qərarlaşıb.

### Ağırlıqqaldırma

ABŞ-ın Las-Veqas şəhərində keçirilən yeniyetmə ağırlıqqaldıranlar arasında 8-ci dünya birinciliyi Azərbaycan yığma komandası üçün mühüm uğurlarla yadda qalıb. 50-yə yaxın ölkədən 200-ə qədər atletin mübarizə apardığı yarışda beş idmançı ilə təmsil olunan milli komandamız böyük uğur qazanıb. Azərbaycan atletlərindən Ömər Cavadov (55 kq), Rüstəm Qasımov (67 kq) birdənqaldırma hərəkətində bürünc medal əldə ediblər. Əli Şükürlü (102 kq) həm birdən, həm təkanla qaldırmada, həm də toplamda bürünc medala layiq görülüb. Rəhman Kazımov (+102 kq) isə təkanla qaldırma hərəkətində qızıl medal qazanıb.

Beləliklə, yarışı 6 medalla başa vuran Azərbaycan yığma komandası ağırlıqqaldırma tarixinə qızıl hərflərlə yazılan uğura imza atıb. Qeyd edək ki, bu dünya birinciliyində Azərbaycan millisi oğlanlar arasında komanda hesabında beşinci yeri tutub. Medal hesabında isə yığmamız 10-cu pillədə qərarlaşıb.

### Karate

İstanbulda 32-ci beynəlxalq Bosfor kuboku turnirində Azərbaycan karateçiləri 14 medal qazanıblar. Fərdi kumite yarışlarında Vüsal Qəmbərov (30 kq), Məhəmməd Xamoyev (45 kq), Ramil Baxşəliyev (52 kq) və Hüseyn Məmmədli (61 kq) bütün rəqiblərini məğlub edərək turnirin qalibi adına layiq görülüblər.

Fərdi kumite yarışlarında komandamızın aktivinə gümüş medalları Rüstəm Rzayev (+45 kq), Kamil Kərimli (45 kq), Ayxan Allahverdiyev (52 kq), Rəsul Abbasov (45 kq), Osman Osmanlı (+76 kq) yazdırıblar. Bu yarışlarda Əli Ağayev (40 kq), Aysu Əliyeva (44 kq), Fərid Savadov (52 kq), Ruslan Qafarlı (57 kq) və Fərid Ağayev (76 kq) isə bürünc medallara sahib olublar.

* * *

Avstriyanın Zalsburq şəhərində keçirilən Dünya Karate Federasiyasının (WKF) nüfuzlu yarışlarından olan A seriyası turnirini karateçilərimiz iki medalla başa vurublar.

Fransa, İtaliya, İran və Ekvador təmsilçilərini məğlub edən Asiman Qurbanlı (+84 kq) yarımfinalda sonuncu dünya çempionu Conatan Horneyə (Almaniya) qalib gəlib. Qızıl medal uğrunda həlledici görüşdə karateçimiz daha bir İran idmançısı Saleh Abazarini məğlub edərək qızıl medala sahib olub.

Digər idmançımız Ayxan Mamayev (84 kq) isə bürünc medala layiq görülüb.

* * *

Azərbaycan Aşihara Karate Federasiyasının idmançıları Antalyada keçirilən Avrasiya çempionatında iştirak ediblər. Çempionatda 11 ölkədən 200-dən çox idmançı mübarizə aparıb. Təmsilçilərimiz mötəbər turnirdə uğurla çıxış edərək 6 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar.



### Şahmat

Vüqar Həşimov Şahmat Akademiyasında "Bahar" beynəlxalq şahmat festivalı keçirilib. Yarışın qalibi 7,5 xal toplayan Fərid Cəfərzadə olub. Onunla eyni xalı toplayan Xan Əliyarlı əlavə göstəricilərə görə ikinci pilləyə layiq görülüb. Üçüncü yerdə isə Röya Müslümzadə qərarlaşıb. İsveçrə sistemi üzrə keçirilən və doqquz turdan ibarət yarışda 70 nəfər mübarizə aparıb.

* * *

Astanada şahmat üzrə komandalararası dünya çempionatı keçirilib.

Kişi şahmatçılardan ibarət komandamız son turda Misir yığmasını 2,5:1,5 hesabı ilə məğlub edib.

Doqquz turun yekununda 8 xal toplayan Azərbaycan komandası yeddinci yerə sahib olub.

Rusiya komandası 16 xalla dünya çempionatının qalibi olub.

İngiltərə şahmatçıları 13 xalla ikinci, Çin yığması isə 12 xalla üçüncü yeri tutub.

### Qılıncoynatma

Belçikanın Sint-Niklas şəhərində sablya üzrə qadınlar arasında dünya kubokunun mərhələ yarışları keçirilib. Yarışda sablyaçılarımız şəxsi və komanda yarışında qüvvəsini sınayıblar. Qılıncoynadanlarımızdan Səbinə Kərimova yekun sıralamada 200-ə yaxın qadın sablyaçının yarışdığı turnirdə 30-cu sırada qərarlaşıb. Digər sablyaçılarımızdan Sevil Bünyatova 1/16 finalda Böyük Britaniya komandasına 37:45 hesabı ilə uduzub.

### Kikboksinq

Azərbaycan Kikboksinq Federasiyasının üzvü, dünya çempionu Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində keçirilmiş nüfuzlu beynəlxalq turnirdə növbəti dəfə parlaq qələbə qazanaraq dünya kəmərinə (WFMC) sahib olub.

Qarışıq döyüş növləri (MMA) və K-1 versiyaları üzrə keçirilən beynəlxalq turnirdə X.Əhmədov Almaniya kikboksçu, məşhur "Nubia Sports" klubunun yetirməsi Kevin Herşlaqla qarşılaşıb. Azərbaycanı təmsil edən "Tank" ləqəbli kikboksçumuz 5 raundluq döyüşdə rəqibi üzərində inamlı qələbə qazanaraq Azərbaycan bayrağını qaldırıb.

* * *

Azərbaycan kikboksçusu Alim Nəbiyev Strasburqda təşkil olunan "Glory 64" turnirində növbəti döyüşünü keçirib. "Qəbələ" idman klubunun təmsilçisi, yarım orta çəki dərəcəsində mübarizə aparan Alim Nəbiyev hollandiyalı Murtela Qroenhart ilə qarşılaşıb. "Glory" seriyasının reytinq birincisi olan idmançımız görüşdən qalib ayrılıb - 4:1.

### Futbol

Futbol üzrə Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsi çərçivəsində ilk oyununu keçirib.

Millimiz səfərdə Xorvatiya yığması ilə qarşılaşıb. Zaqreb şəhərindəki "Maksimir" stadionunda keçirilən oyunu Bolqarıstandan olan hakimlər briqadası idarə edib. Qarşılıqlı hücumlar şəraitində başlayan oyunun 19-u dəqiqəsində Ramil Şeydayev baxımlı qolla komandamızı hesabda önə çıxarıb.

Matçın 44-cü dəqiqəsində xorvatiyalı futbolçu Borna Barişiç hesabı bərabərləşdirib və matçın ilk hissəsi 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. İkinci hissəyə Xorvatiya millisi daha fəal başlayıb. Matçın 79-cu dəqiqəsində Andrey Kramariç komandasının ikinci topunu millimizin qapısından keçirib və bu, oyunda vurulan sonuncu qol olub.

* * *

Azərbaycan milli komandası Litva millisi ilə yoldaşlıq görüşündə gücünü sınayıb. "Bakcell Arena" stadionunda keçirilən oyunu Rumıniyadan olan hakimlər briqadası idarə edib. Oyunun ilk hissəsində millimiz hesabı açmağa yaxın olsa da, rəqibin müdafiəçiləri inamlı oynayaraq qola imkan verməyiblər. Qarşılaşmanın ikinci hissəsi millimizin üstünlüyü ilə yadda qalıb.

Milli komandamız qonaqların qapısı qarşısında bir neçə dəfə təhlükəli vəziyyət yaratsa da, rəqib qapısını toxunulmaz saxlamağa nail olub. Beləliklə, matç 0:0 hesabı ilə başa çatıb.

### Stolüstü tennis

Stolüstü tennis üzrə Azərbaycan yığması Qazaxıstanın Çimkənt şəhərində keçirilən beynəlxalq turnirdə iştirak edib. Qazaxıstanın Milli Qəhrəmanı Akpan Batırın xatirəsinə həsr olunmuş turnirdə stolüstü tennisçilərimiz 2 medal qazanıblar. Qadınların komanda yarışlarında yığmamızın üzvləri Məryəm İmanova və Nəzakət Qarayeva gümüş medala sahib olublar. Şəxsi yarışlarda isə Məryəm İmanova bürünc medal qazanıb.

### Badminton

Kubanın paytaxtı Havana şəhərində "XX Giraldilla 2019" turnir keçirilib. Kişilərin şəxsi yarışında ölkəmizi təmsil edən Ezmi Qovimuramadhoni mübarizəyə səkkizdəbir final mərhələsindən start verib. Badmintonçumuz ilk görüşündə Lüksemburq idmançısı Robert Mannı 2:0 (21-16,21-17) hesabı ilə məğlub edib. 1/4 finalda meksikalı Arturo Hernandez ilə qarşılaşan Ezmi rəqibi üzərində 2:0 (21-19,21-14) hesablı qələbə qazanıb. Ezmi yarımfinalda Kuba təmsilçisi Leodannis Martinez Palasio ilə yarışıb. Gərgin və maraqlı mübarizə şəraitində keçən qarşılaşma badmintonçumuzun 2:1 (21-16,19-21,21-19) hesablı qələbəsi ilə başa çatıb

Ezmi həlledici final görüşündə Meksika idmançısı, turnirin 1 nömrəli reytinq favoriti Cob Kastilyo ilə qarşılaşıb. Görüş meksikalı badmintonçunun 2:0 (21-12,21-13) hesablı qələbəsi ilə yekunlaşıb. Bu nəticə ilə, "XX Giraldilla 2019" turnirinin finalında uduzan Ezmi yarışın gümüş medalına sahib olub.

### Sumo

Sumoçumuz Camal Feyziyev Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən ümumdünya etno festivalında uğurla çıxış edərək ölkəmizə üç bürünc medal qazandırıb. 18 yaşlı idmançımız sərbəst güləş yarışında fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Otuz iki idmançının iştirak etdiyi yarışda Şri-Lanka, Rusiya və Belarus təmsilçilərinə qalib gələn C.Feyziyev yarımfinalda qırğızıstanlı güləşçiyə məğlub olub. C.Feyziyevin festivalda, həmçinin mas-reslinq və kəmər güləşi yarışlarında bürünc medallara layiq görülüb.

### Futtennis

Bakıda futtennis üzrə ikinci beynəlxalq turnir keçirilib. Turnirdə 4 Azərbaycan komandası ilə yanaşı, Rusiya, Gürcüstan və İran kollektivləri də birincilik uğrunda mübarizə aparıb. Dairəvi sistem üzrə keçirilən turnirin baş mükafatına Azərbaycanın ASTA komandası sahib olub. Digər komandamız "Marafon" yarışı ikinci, İran kollektivi isə üçüncü pillədə başa vurub.

Qalib komandalara medallar, qiymətli hədiyyələr və kubok təqdim olunub.



## Təmsilçimiz Avropa çempionu adını qazandı

Azərbaycan parakarateçisi Sahib Əhədov İspaniyanın Quadalaxara şəhərində keçirilən 54-cü Avropa çempionatının qalibi olub.

Parakarate üzrə milli komandanın üzvü, dünya ikincisi Sahib Əhədov gözdən zəif idmançılar arasında üç idmançıdan ibarət qrupda moldovalı və rusiyalı rəqiblərini qabaqlayaraq 39,94 xalla qrup lideri olub. Gürcüstanlı Zviadi Vasadze ilə həlledici görüşdə 43,58 xal toplayan idmançımız qızıl medal qazanıb.

Parakarateçilər arasında üç dərəcə üzrə keçirilən Avropa çempionatında 16 ölkədən 46 idmançı mübarizə aparır.

## *Braziliya və kombat ciu-citsusu üzrə açıq turnir*

Hövsan Olimpiya İdman Kompleksində Braziliya ciu-citsu döyüş sənətinin No-Gi versiyası və kombat ciu-citsu döyüş sənəti üzrə açıq turnir keçirilib.

Gənclər və İdman Nazirliyinin dəstəyi, Avrasiya Kombat Ciu-Citsu Federasiyası və Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən turnirin açılış mərasimində



nazirliyin nümayəndəsi Firudin Paşayev çıxış edərək ölkəmizdə idmana göstərilən dövlət qayğısından və atletlərimizin beynəlxalq arenada qazandığı nailiyyətlərdən danışıb.

Daha sonra çıxış edən Avrasiya Kombat Ciu-Citsu Federasiyası və Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin prezidenti Aqil Acalov qonaqları salamlayaraq idmançılara müvəffəqiyyət arzulayıb. O, həmçinin ölkəmizdə bu idman növlərinə artan maraqdan və bu idman növlərinin populyarlaşmasından söz açaraq Gənclər və İdman Nazirliyinə yarışa göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin təsisçisi və İdarə Heyətinin sədri, qara kəmər sahibi Taleh Həsənov da yarış iştirakçılarını və qonaqları salamlayıb və onlara müvəffəqiyyət arzulayıb.

Yarışda 20-dək klub və nümayəndəlikdən idmançılar iştirak ediblər. Bundan başqa yarışa qonaq qismində Rusiyadan bir, Gürcüstandan isə iki komanda da qatılıb.

İki yüzdən çox idmançının mübarizə apardığı yarışda müxtəlif çəki dərəcəsi, yaş və kəmər kateqoriyasında uşaqlar, yeniyetmələr, gənclər və veteranlar öz güclərini sınayıblar.

Yarışın sonunda turnirin qaliblələri diplom və medallarla mükafatlandırılıblar.

## BŞGİBİ-də iclas keçirilib

Martın 29-da Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində 2019-cu il klub komandaları arasında



yaz/payız birinciliyinin iclası keçirilib. İclasda BŞGİBİ-nin məsul işçisi Adil Ağayev oyunların reqlamenti ilə bağlı məlumatlar verib. Bildirilib ki, turnirdə 2003, 2004, 2005, 2006, 2007-ci il təvəllüdlü yeniyetmələr iştirak edəcəklər. Yarışda hər klubdan 4 komanda olmaqla ümumilikdə 40-a yaxın komandanın iştirakı planlaşdırılır. Birinciliyin təşkilatçısı Bakı Şəhər Gənclər və İdman Baş İdarəsidir.

Qeyd edək ki, stadionu öz ev oyununu keçirən komandalar təmin edirlər.

# Formula 1

## Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıqlar davam edir

Formula-1 Azərbaycan Qran-Prisinin başlanmasına bir aydan az vaxt qalıb. Möhtəşəm idman tədbirinə hazırlıq prosesi yekunlaşmaq üzrədir. Bununla əlaqədar "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti gücləndirilmiş iş rejiminə keçib. Yarışın keçiriləcəyi məkanlarda müvafiq şəraitin yaradılması, tribunaların quraşdırılması və yol kənarında təhlükəsizlik baryerlərin yerləşdirilməsi tamamlanmaq üzrədir. Artıq Azərbaycanın üç ildir ev sahibliyi etdiyi Qran-Prinin ikisi dünyada azarkeşlər tərəfindən ən yaxşı yarış hesab edilib. "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti bu dəfə də missiyasına sadiq qalmaq üçün yarışlarla bağlı ən kiçik məqamlara da tam ciddi yanaşır.

Bunu "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai deyib.



O, qeyd edib ki, küçələrdə gündəngünə dəyişikliklər olur. Son tamamlanma işləri ilə bağlı bu mərhələdə müəyyən günlərdə və müxtəlif küçələrdə aprelin 8-dək nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq. Bəzi yerlərdə asfalt qatı yenilənir, tikinti işləri aparılır. İnsanları çox narahat etməmək üçün bu işləri sürətlə görməyə çalışırıq.

"Yarışlar üçün bilet satışı da əvvəlki illərdən fərqlənir. Builki yarışa diqqət əvvəlkindən artıb. Tribunalara olan yerlərin 70 faizi tutulub. Biletləri daha çox xarici vətəndaşlar alırlar. Çoxsaylı xarici vətəndaşların Azərbaycana gəlişini gözləyirik. Ümumiyyətlə, keçən ilin eyni dövrü ilə müqayisədə bu il bilet satışı daha çoxdur.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti yarışı izləmək üçün Bakıya gələcək turistlərlə bağlı müxtəlif konsert proqramları və əyləncə zonaları da təşkil edəcək. Əvvəlki illərdə üç konsert olurdusa, bu il şənbə və bazar günləri olmaqla iki konsert proqramı keçiriləcək. Bundan başqa, "Elektra Events Hall"da DJ-lərin şousu olacaq", - deyə N.Arpadarai bildirib.

Qeyd edək ki, Formula-1 Azərbaycan Qran-Prisinin təşkili və keçirilməsi ilə bağlı ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları Prezident İlham Əliyevin sərəncamına əsasən sadələşdirilib. Sərəncamda bilet alanlar və ya müəyyən akkreditasiyası olan insanlar vizalarını hava limanında əldə edəcəklər. Ümumilikdə isə "ASAN Viza" vasitəsilə üç gün ərzində viza əldə etmək mümkündür. Bu isə turistlərin yarışlara izləyici kimi qoşulmasını daha da stimullaşdırır.

Bakıda növbəti Formula 1 yarışı aprelin 26-28-də keçiriləcək.

* * *

Londonda "Liberty Media" ilə Formula 1-in bütün 10 komandasının nümayəndələri arasında irimiqyaslı görüş başa çatıb. Görüşün yekunlarına görə, 2021-ci ildən tətbiq olunacağı planlaşdırılan idman və texniki reqlament dəyişiklikləri barədə çempionatın rəhbərliyi və iştirakçıları tam razılığa gələ bilməyiblər. Bununla yanaşı, ümumilikdə görüş iştirakçılarının "Liberty Media"nın təklifindən razı qaldıqları bildirilir.

Görüş çərçivəsində Strateji qrupun (bütün komandaların iştirakı ilə), həmçinin tras və sponsor təmsilçiləri ilə birgə Formula 1 komissiyasının təqdimatı keçirilib. Qlobal məsələlərlə bağlı səsvermə təşkil olunmayıb. Lakin bu cür görüşlərin iyun ayınadək keçirilməsi planlaşdırılıb. Məhz bu müddətə 2021-ci il mövsümü üçün yekun reqlament işlənib hazırlanmalıdır.

Görüşün yekunlarından biri də Formula 1 tərəfindən "Mersedes" və "Ferrari" komandalarına bir sıra kiçik güzəştlərin edilməsi olub. Bundan başqa, gələn mövsümün reqlamentinə edilən bəzi dəyişikliklər bəyanilib. Bu dəyişikliklər Beynəlxalq Avtomobil Federasiyasının Dünya Şurasında təsdiqlənəcək.

* * *

2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatının seçmə mərhələsi oyunları çərçivəsində İngiltərə yığması Monteneqro komandasını 5:1 hesabı ilə darmadağın edib. Lakin qələbə əhvalını Monteneqro azarkeşlərinin irqçilik təzahürləri pozub.

Fanatlar britaniyalı müdafiəçi Denni Rouza təhqirlər ünvanlayaraq, meydana kənar əşyalar atıb, partladıcı vasitələrdən istifadə edib, həmçinin qarışıqlıq yaradaraq stadiondakı pilləkən keçidləri bağlayıblar.

Britaniyalı avtoyürüşçü, "Mersedes" komandasının pilotu Luis Hamilton həmvətənlərini dəstəkləyərək, monteneqrolu azarkeşlərin davranışını pisləyib.

"İngiltərə yığmasını Monteneqro üzərində 5:1 hesabı ilə dünənki qələbə münasibətilə təbrik edirəm. Bu, bizim hamımızın fəxr etməsi üçün imkan yaratdı. Lakin bu şüarlar və bütün baş verənlər - alçaqlıqdır və qəbuledilməzdir. Belə davranışa heç bir idman növündə yer olmamalıdır", - deyə beşqat dünya çempionu özünün sosial şəbəkələrdəki hesabında yazıb.

UEFA-da artıq qalmaqalla bağlı tədqiqata başlanılıb. Avropa Futbol Federasiyasının prezidenti Aleksander Çeferin baş verənləri "fəlakət" adlandırıb. İndi Monteneqro sanksiyalar qarşısındadır. Podqoritsadakı stadionda keçiriləcək oyunlara müvəqqəti qadağanın qoyulacağı istisna deyil.

## Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin xronikası

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Dövlət Təhlükəsizliy Xidmətinin Sumqayıt şəhər şöbəsinin birgə təşkilatçılığı ilə Sumqayıt Olimpiya İdman Kompleksində Dövlət Təhlükəsizlik Orqanlarının yaranmasının 100 illik yubileyinə həsr olunmuş cüdo üzrə



2005-2006-cı illər təvəllüdlü oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib. Yarışın açılış mərasimində çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov idmanın inkişafına xüsusi diqqət və qayğı göstərildiyini, bu sahənin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini, Azərbaycanın idman ölkəsi kimi beynəlxalq aləmdə tanındığını və Olimpiya Hərəkatına qoşulmasının geniş vüsət almasını qeyd edib.

T.Səmədov çıxışını davam edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü işlər, uğurlu idman siyasəti nəticəsində Azərbaycanın bütün bölgələrində möhtəşəm Olimpiya İdman Komplekslərinin tikildiyini, ölkəmizin hərtərəfli və dinamik inkişafını qeyd edib. Natiq ölkəmizdəki, ictimai-siyasi sabitlikdən, mühüm beynəlxalq tədbirlərin keçirilməsində əldə olunan geniş təcrübədən, müasir idman infrastrukturunun yaradılmasından, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurlardan bəhs edib. Çıxışlar başa çatdıqdan sonra birincilik açıq elan edilib.

İki gün davam edən birincilikdə müxtəlif çəki dərəcələri üzrə qaliblər müəyyənləşib. Yarışın qalib və mükafatçıları Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, medal və qiymətli hədiyyələri ilə mükafatlandırılıb.

* * *

Dənizkənarı bulvarda Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş stolüstü tennis üzrə 2004-cü il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib.

Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov ölkəmizdə idmanın sürətli inkişafından danışaraq əldə olunmuş bütün nailiyyətlərin dövlətin bu sahəyə olan diqqət və qayğısının nəticəsi olduğunu vurğulayıb. Eyni zamanda baş idarənin rəisi şəhərin 70 illik yubileyinə həsr olunmuş yarış və birinciliklərin il ərzində davamlı olacağını qeyd edib və iştirakçılara uğurlar arzulayıb.

Birincilikdə qızlar arasında Arzu Aslanova bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Onun komanda yoldaşları Mərziyyə Nürmətova ikinci, Fatimə Cəfərova və Mehriban Dadaşova isə üçüncü yerləri tutublar.

Oğlanlar arasında keçirilən yarışda Toğrul Məmmədov, Hüseyn Eylazov, İlkin Ağayev və Tural Mirzəyev müvafiq olaraq, ilk üç yeri tutublar.

Sonda qalib və mükafatçılar şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, medal, hədiyyə və kuboku ilə təltif olunublar.

* * *

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi və "Sumqayıt" Futbol klubunun birgə təşkilatçılığı ilə "Kapitalbank" Arenada 26-31 mart 2019-ci il tarixlərində Xaçmaz rayonunda keçirilmiş "Sabahın ulduzları" kuboku uğrunda futbol üzrə 2008-2009-cu il təvəllüdlü yeniyetmələr arasında Azərbaycan birinciliyində I yeri tutmuş şəhər yığma komandasının mükafatlandırma mərasimi keçirilib. Tədbirdə şəhərin idman məktəblərinin, cəmiyyət və klubların rəhbər və məşqçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov, "Sumqayıt Futbol Klubu"nun prezidenti Riad Rəfiyev, vitse prezidenti Vaqif Ömərov ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kütləvi bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirildiyini, bu sahənin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini və



yüksəlişinin əsası qoyularaq müstəqil Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və Olimpiya hərəkatına qoşulmasının geniş vüsət almasını qeyd etdilər. Daha sonra ölkəmizdə idmanın sürətli inkişafından danışaraq əldə olunmuş bütün nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısının nəticəsi olduğunu vurğuladılar və ölkə birinciliyinin qalibi olmuş şəhər yığma komandasının idmançılarını təbrik edib onlara gələcək fəaliyyətlərində uğurlar arzuladılar. Futbol üzrə şəhərin baş məşqçisi Ağamusa Bağırov göstərilən diqqət və qayğıya görə şəhər rəhbərliyinə və əziyyəti olmuş hər bir təşkilata öz minnətdarlığını bildirmişdir.

# FUTBOL

## "Neftçi"dən minimal hesablı qələbə



Topaz Premyer Liqasında 22-ci turun oyunları keçirilib. Martın 30-da start götürən turun ilk qarşılaşması "Zirə" və "Səbail" komandaları arasında təşkil olunub. "Zirə" İdman Kompleksində keçirilən oyunda "Səbail" komandası 2:1 hesabı ilə qalib gəlib. Oyunda hesabı 41-ci dəqiqədə qonaqlar açıblar. Ağabala Ramazanov fərqlənib - 0:1. Matçın 69-cu dəqiqəsində "Zirə"nin futbolçusu Xulio Sezar Rodrigez tarazlığı bərpa edib - 1:1. "Səbail"in futbolçusu Şəhriyar Rəhimov qarşılaşmanın əsas hissəsinə əlavə olunmuş vaxtın 3-cü dəqiqəsində komandasının qələbə topunu vurub - 2:1. Turun ilk gününün ikinci qarşılaşmasında "Neftçi" səfərdə "Keşlə" klubunun qonağı olub. "ASK Arena" stadionunda keçirilən görüşdə "Neftçi" minimal hesabla qələbə qazanıb - 1:0. Oyunda yeganə qolu 79-cu dəqiqədə Emin Mahmudov vurub. O, hakimin təyin etdiyi 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirib. Turun digər oyununda "Qarabağ" səfərdə "Sumqayıt"a - 6:0 hesabı ilə qalib gəlib. "Qəbələ" və "Sabah" oyununda isə hesab açılmayıb.

Qeydə alınan nəticələrdən sonra "Qarabağ" və "Neftçi" 48 xalla 1-2-ci yerləri bölüşür.

## *Bakı finalında futbolçuları müşayiət edəcək uşaqlar seçilib*

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final oyununda maraqla gözlənilən məqamlardan biri də komandaların üzvləri ilə birgə meydana çıxacaq, futbolçuları paltardəyişmə otaqlarının dəhlizindən yaşıl meydana qədər müşayiət edəcək uşaqların seçim prosesidir. Artıq bu istiqamətdə görülən işlər yekun




mərhələdədir. Dördüncü ildir UEFA Avropa Liqasının gənclər proqramı üzrə rəsmi tərəfdaşlarından olan "Fedex" beynəlxalq yükdaşıma şirkətinin əməkdaşlığı ilə gənclər proqramına aztəminatlı və məcburi köçkün ailələrindən 22 azyaşlı qız (10-12 yaşarası) cəlb olunub. Həmin uşaqların bəziləri AFFA-nın "Məktəblərdə futbol dərsi"layihəsinin iştirakçıları, digərləri isə AFFA-nın təşkilatçılığı ilə keçirilən U-13 Qızlar Liqası turnirində mübarizə aparan komandaların üzvləridir. Martın əvvəllərində "Fedex" şirkətinin xüsusi çəkiliş qrupu layihəyə cəlb edilmiş qızların futbola maraq və istəklərini işıqlandırmaq məqsədilə videoçarxın çəkilişlərini aparıb, müsahibələr alıb. Beləliklə, mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final oyunu təkcə qarşılaşmanın təşkilatçıları, azarkeşləri, oyunun rəsmi şəxsləri və finalçı komandaların üzvləri üçün deyil, eləcə də futbolçuların əlindən tutaraq onları yaşıl meydana qədər müşayiət edən uşaqlar üçün də xüsusi və unudulmaz olacaq.

* * *

Mayın 29-da Bakı Olimpiya Stadionunda (BOS) keçiriləcək UEFA Avropa Liqasının final oyunu ilə əlaqədar müxtəlif fəaliyyət sahələri üzrə nümayəndə heyətlərinin Azərbaycan paytaxtına mütəmadi səfərləri davam edir. UEFA tərəfdaşlarının Bakıya ikinci işgüzar səfəri başlayıb. Bu dəfə final qarşılaşmasında UEFA ilə rəsmi tərəfdaş olan şirkətlərin təmsilçiləri Bakı Olimpiya Stadionuna, həmçinin final oyunu ilə bağlı təşkil olunacaq müxtəlif tədbirlərin keçiriləcəyi məkanlara baş çəkəcəklər. UEFA tərəfdaşlarının ikinci işgüzar səfəri martın 28-də yekunlaşacaq.

## *Dünya futbolu*

### Çempionlar Liqasının matçları həftəsonu keçiriləcək

UEFA Çempionlar Liqasında qrup mərhələsinin formatı dəyişə bilər. Hazırda 2024-2025 mövsümündən etibarən qrupların sayının azaldılması müzakirə olunur. Ancaq bu dəyişiklik komanda sayına təsir etməyəcək. Sadəcə, 32 klubun 8 yox, 4 qrupa bölünməsi təklif olunur. Bu isə o deməkdir ki, hər qrupda 8 komanda yarışacaq. Qruplarında ilk 4-lüyə düşən klublar pley-off mərhələsinə vəsiqə qazanacaqlar.

Avropa Klublar Birliyinin (ECA) irəli sürdüyü ideya ÇL-də oyun sayının, bunun sayəsində isə gəlirlərin artırılmasına hesablanıb. Dəyişiklik UEFA tərəfindən qəbul olunsa, qitənin bir nömrəli klub turnirində mövsüm ərzində ümumilikdə 94 yox, 224 oyun keçiriləcək. ECA-nın komandalar ölkədaxili matçları həftəiçi, ÇL görüşlərini isə həftəsonu keçirməyi təklif edəcəyi də bildirilir.

### "Şeva" Milana qayıdır?

"Milan"nın idman direktoru Leonardo komandanın baş məşqçisi Cennaro Qattuzonun qovulacağı ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. "Sky İtalia" nəşrinin yaydığı xəbərə görə, klub rəsmisi baş məşqçinin istefaya göndərilməyəcəyini söyləyib: "Bizim Qattuzo ilə müqaviləmiz var. Heç vaxt onun istefasını müzakirə etməmişik. Həmişə bu məsələdə son dərəcədə açıq olmuşuq. Onu əvəzləmək barədə düşünməmişik". Qeyd edək ki, son vaxtlar "Milan"ın əfsanəvi futbolçularından, hazırda Ukrayna millisini çalışdıran Andrey Şevçenkonun Qattuzonu əvəzləyəcəyi ilə bağlı xəbərlər dolaşır.

### Məşqçi futbolçunu fikrindən daşındırıb

"Real"ın futbolçusu Marselo klubdakı gələcəyi ilə bağlı qərarını dəyişib. Zinəddin Zidanın Madrid təmsilçisinə qayıtmağından sonra braziliyalı müdafiəçi "Kral klubu"nda qalmaq qərarına gəlib. Fransalı mütəxəssis 30 yaşlı oyunçu ilə görüşüb və onu komandada qalmağa inandırıb. Qeyd edək ki, Marselo "Real"ın sabiq baş məşqçisi Santyaqo Solari ona start heyətdə çox yer vermədiyi üçün komandadan ayrılmaq istəyirdi. Xatırladaq ki, Marselonun Madrid klubu ilə müqaviləsinin müddəti 2022-ci ilin iyununda başa çatır.

### Mourinyo Almaniyada işləyə bilər

"Mançester Yunayted"in sabiq baş məşqçisi Joze Mourinyo haqda yeni iddia yayılıb. Portuqaliyalı mütəxəssisin "Bavariya"nı çalışdıra biləcəyi vurğulanıb. Münhen klubunun 56 yaşlı çalışdırıcını hazırkı baş məşqçi Niko Kovaçin əvəzləyicisi kimi gördüyü iddia olunub. Qeyd edək ki, bundan əvvəl Mourinyonun "Monako" və ya "Lion"nun baş məşqçisi təyin olunacağı barədə də xəbərlər yayılıb.

### Şahzadə futbolçunu ordenlə təltif etdi

İngiltərə millisinin və "Tottenhem"in futbolçusu Harri Keynə Britaniya imperiyasının ordeni təqdim olunub. Medalı 26 yaşlı hücumçuya şahzadə Uilyam verib. O, futboldakı nailiyyətinə görə mükafatlandırılıb. Qeyd edək ki, DÇ- 2018-də 6 qolla mundialın bombardiri adını qazanan Harri Keyn komandasının yarımfinala qədər irəliləməsində böyük rol oynayıb.

## Avro-2020-nin talismanı müəyyənləşib

Martın 24-də Avro-2020-nin rəsmi talismanı təqdim olunub. "Johan Cruijff Arena" stadionunda oynanılan Hollandiya-Almaniya oyunundan əvvəl 55 min tamaşaçıya "Skillzi" adlı talisman təqdim olunub. Onu meydana tanınmış fristayçılar Liv Kuk və Tobias Bex gətirib. Qeyd edək ki, Avro-2020-nin final mərhələsi qitənin 12 şəhərində, o cümlədən Bakıda təşkil olunacaq. 24 komandadan 4-ü UEFA Millətlər Liqasından, 20-si isə hər qrupda ilk 2-si olmaqla, seçmə mərhələdən vəsiqə qazanacaq.

## Milli komandada daha çox işləyən məşqçilər



Bir vaxtlar Azərbaycan milli komandasının baş məşqçisi olmuş almaniyalı Berti Foqts, məlum olduğu kimi, yığmamızda 6 ildən çox çalışmışdı. Milli komandaların hazırkı məşqçilərindən öz vəzifəsində daha çox qalanların siyahısı ilə tanış olaq.

### Morten Olsen (Danimarka)

Vaxtilə 19 il ( 1970-1989 ) futbolçu kimi Danimarka millisinin formasını geyinən Olsen 2000-ci ilin iyulundan bu komandanı çalışdırır. 14 ildən çox olan bu müddətdə danimarkalılar onun rəhbərliyi ilə 150 oyun səddini də keçiblər.

Olsenin rəhbərlik etdiyi Danimarka millisi DÇ-2002 (1/8 final), DÇ-2010 (qrupda 3-cü yer), Avro-2004 (1/4 final) və Avro-2012-də (qrupda 3-cü yer) çıxış edib. Vaxtilə komanda ardıcıl iki mötəbər yarışdan - DÇ-2006 və Avro-2008-dən kənar qalsa da, 65 yaşlı mütəxəssis vəzifəsini tərk etməyib.




### Oskar Tabarez (Uruqvay)

1988-1990-cı illərdə, o cümlədən DÇ-1990-da Uruqvay millisini çalışdırmış Tabarez 2006-cı ilin mayından yenidən bu komandanın baş məşqçisidir. Onun rəhbərliyi ilə uruqvaylılar 2010-cu ildə dünya çempionatında 4-cü yeri tutub, 2011-ci ildə isə "Copa America" turnirinin qalibi olublar. Tabarez özü isə həmin illərdə Cənubi Amerikanın ən yaxşı məşqçisi seçilib.

DÇ-2014-də Uruqvayın uğursuz çıxış edərək 1/8 finalda mübarizəni dayandırmasına baxmayaraq, 67 yaşlı uruqvaylı mütəxəssis vəzifəsində qalıb.

Tabarezin vaxtilə İtaliya ("Kalyari" və 1996-cı ildə "Milan") və İspaniya ("Oviedo") klublarını çalışdırdığını da xatırladaq.

### Yoahim Löv (Almaniya)

Futbolçu kimi 1979-1980-ci illərdə AFR-in U-21 yığmasında 4 oyun keçirmiş Löv məşqçi kimi daha uğurlu olub. 2004-2006-cı illərdə Almaniya millisində məşqçi köməkçisi olan 54 yaşlı mütəxəssis 2006-cı ilin iyulundan isə bu komandanın baş məşqçisidir. Onun rəhbərliyi ilə Avro-2008-də vitse-çempion olan, DÇ-2010 və Avro-2012-də 3-cü yeri tutan "Bundestim" 2014-cü ildə dünya çempionluğunu qazanıb.

Lövün əvvəllər, həmçinin Türkiyədə çalışdığını, "Fənərbağça" (1998-1999) və "Adanaspor"a (2001) rəhbərlik etdiyi də məlumdur. Vətənində isə o, tanınmış klublardan "Ştutqart"ın (1996-1998) baş məşqçisi olub.

*Foqts istefa verməklə Löv və Del Boskenin olduğu siyahıdan çıxmışdı*

### Visente Del Boske (İspaniya)

Futbolçu kimi 1975-1980-ci illərdə İspaniya millisində çıxış edən Del Boske 2008-ci ilin iyulundan bu komandanı çalışdırır. 63 yaşlı mütəxəssisin rəhbərliyi ilə ispanlar 2010-cu ildə dünya, 2012-ci ildə Avropa çempionu olub, DÇ-2014-də isə uğursuz çıxış edərək qrupda qalıblar.

Del Boske milli komandada ilk 10 oyununun hamısında qələbə qazanan ilk məşqçi kimi futbol tarixinə düşüb. İndiyə kimi İspaniya yığması onun rəhbərliyi ilə 100-ə yaxın oyun keçirib.

2012-ci ildə FİFA tərəfindən dünyanın ən yaxşı məşqçisi seçilən Del Boske Avro-2016-dan sonra İspaniya millisindən gedəcəyini açıqlayıb.

Del Boskenin milli komandadan əvvəl "Real" və "Beşiktaş" kimi klubları çalışdırdığını da xatırladaq. İspaniyalının rəhbərliyi altında Madrid klubu 2000 və 2002-ci illərdə Çempionlar Liqasının qalibi olub.

### Leunq Sui Vinq (Makao)

1980-1989-cu illərdə futbolçu kimi Honkonq millisində çıxış edən Leunq Sui Vinq 2008-ci ildən Makao yığmasını çalışdırır. Bu komandanın FİFA-nın oktyabr ayı üçün açıqladığı dünya reytinqində 184-cü, Asiyada isə 41-ci yerdə qərarlaşdığını da xatırladaq.

### Akbar Patel (Mavriki)

2009-cu ilin martından Mavriki millisini çalışdıran Patel 2003 və 2007-ci illərdə də bir müddət bu yığmanın baş məşqçisi olub. Mavrikili mütəxəssisin rəhbərliyi altında komanda Hind Okeanı Oyunları-2003-ün futbol turnirinin qalibi olub. Mavriki millisi FİFA-nın oktyabr ayı üçün açıqladığı dünya reytinqində 191-ci, Afrikada isə 51-ci yerdə qərarlaşıb.

### Erik Hamren (İsveç)

57 yaşlı isveçli Hamren 2009-cu ilin noyabrından İsveç komandasının baş məşqçisidir. Onun rəhbərliyilə isveçlilər DÇ-2010 və DÇ-2014-ə çıxa bilməyib, Avro-2012-də isə qrupda sonuncu - 4-cü yeri tutublar.

Hamrenin milli komandadan əvvəl İsveç, Danimarka ("Olborq") və Norveç ("Rusenborq") klublarını çalışdırdığını da qeyd edək.

### Neqaş Teklit (Eritreya)

44 yaşlı eritreyalı Teklit 2009-cu ildən Eritreya millisini çalışdırır. Bu komandanın FİFA-nın oktyabr ayı üçün açıqladığı dünya reytinqində 200-cü, Afrikada isə 52-ci yerdə qərarlaşdığı məlumdur.

***Rasim Mövsümzadə***



# Dünya-idmanı

## AİPS ən yaxşıları müəyyən etdi

Beynəlxalq İdman Jurnalistləri Assosasiyası (AİPS) 2018-ci ilin ən yaxşı atletlərinin adlarını açıqlayıb.

AİPS-in nominasiyasında kişilər arasında ən yaxşı idmançı adına "Real"ın oyunçusu və "Qızıl top"un sahibi xorvatiyalı Luka Modriç layiq görülüb. Modriç tennisçilər Novak Cokoviç (337 xal) və Roje Federeri (290 xal) qabaqlayaraq, 419 xalla birinci olmağı bacarıb.

Qadınlar arasında ən yaxşı idmançı titulunu isə 427 xalla ABŞ gimnastı Simone Bayls alıb. O, rəqibləri Ester Ledeska və Simona Halepi qabaqlayıb.



## Dünyanın ən bahalı futbolçularının adları açıqlanıb

"KPMG Football Benchmark" idman nəşri dünyanın ən bahalı 30 futbolçusunun adını açıqlayıb. 30 nəfərlik siyahıda ən bahalı futbolçu braziliyalı hücumçu Neymar olub. Fransanın "Paris Sen-Jermen" futbol klubunda çıxış edən 27 yaşlı hücumçunun transfer dəyəri 229,1 milyon avrodur. İkinci pillədə "Paris Sen-Jermen"in digər futbolçusu, 215 milyon avro dəyərində Kilian Mbappe qərarlaşıb. İspaniyanın "Barselona" klubunun argentinalı hücumçusu Lionel Messi 203,3 milyon avro ilə siyahıda üçüncüdür. "Liverpul"un misirli hücumçusu Məhəmməd Salah (168,3 milyon avro) dördüncü, "Tottenhem"ın hücumçusu Harri Keyn (151,1 milyon avro) beşincidir.

"Yuventus"un portuqaliyalı futbolçusu 34 yaşlı Kriştiano Ronaldo ilk onluqda yer ala bilməyib.



## *Povetkin: "Karyeramı başa vurmaq fikrim yoxdur"*

Tanınmış rusiyalı boksçu, sabiq dünya çempionu Aleksandr Povetkin karyerasını başa vurmaq niyyətində deyil.

Boksçu bu barədə deyib: "Karyeramı başa vurmaq fikrim yoxdur. Əvvəl də dediyim, kimi döyüşmək üçün hələ qüvvəm də var, həvəsim də. Bir sözlə, növbəti döyüşə hazıram.

Dirsəklərimdə olunan əməliyyatdan sonra bərpa prosesi keçmişəm. Hazırda formadayam və düşünürəm ki, yaxın günlərdə növbəti döyüşümə çıxacağam".

Məlumat üçün bildirək ki, Aleksandr Povetkin son döyüşünü ötən ilin sentyabrında keçirib və nokautla Entoni Coşuaya uduzub.

## *Vəfat etmiş direktorun vəzifələri yeni şəxslərə həvalə edilib*

Beynəlxalq Avtomobil Federasiyası Bəhreyn Qran-Prisi ərəfəsində vəfat etmiş yürüş direktoru Çarli Uaytinqin vəzifələrini bölüşdürüb. Avstraliya Qran-Prisində mərhum direktorun vəzifələrini Maykl Masi icra edib. Masi Bəhreyndə də yürüş direktoru vəzifələrini icra edib. O, həmçinin Beynəlxalq Avtomobil Federasiyasının təhlükəsizlik üzrə nümayəndəsi olub. Bu funksiyanı artıq Formula 1-in logistika üzrə meneceri Kristian Brill yerinə yetirir.

Yürüşləri idarəetmə məntəqəsi sisteminə cavabdeh olan Kolin Heyvud isə yürüş direktorunun müavini vəzifəsini icra edib. Beynəlxalq Avtomobil Federasiyasının rəhbərliyi Uaytinqin yerinə yeni şəxsin təyinatı məsələsini nəzərdən keçirir. Əvvəllər mərhum direktor uzun müddət hər üç funksiyanı yerinə yetirmişdi.



## 42 yaşlı hokkeyçi ilə müqavilə bağlandı

Milli Hokkey Liqasının komandası "Boston Bryuinz" heyətindəki 42 yaşlı oyunçu ilə müqaviləni müddətini uzadıb.

Müdafiəçi Zdena Hara bundan sonra daha 1 il "Boston"un şərəfini qoruyacaq. Bu müddət ərzində slovakiyalı 2 milyon ABŞ dolları maaş alacaq.

Qeyd edək ki, müdafiəçi bu mövsüm 55 görüşdə meydana çıxıb və 11 dəfə fərqlənib.



## Qeyri-adi transfer

Türkiyədə qeyri-adi transfer reallaşıb.

Həvəskarlar liqasında çıxış edən "Bolayır Gənclikspor" klubu əsl peşəsi inşaat mühəndisi olan və 10 ildi həvəskarlar liqası klublarında oynayan Osman Yusufoğlunu heyətinə daxil edib.

Bir il əvvəl o, Kınalı-Tekirdağ-Çanakkale-Savaştepe avtomobil yolunun tikintisi üçün Bursadan Geliboluya yollanıb. Bu zaman o, Bursadakı "Görüklü İpekspor"dan ayrılıb və bir müddət əvvəl "Bolayır Gənclikspor"la anlaşıb.

Həvəskarlar liqası təmsilçisi Osman Yusufoğluna bir il komandanın formasını geyinməsi üçün bir top buğda, bir top günəbaxan tumu və 4500 lirə dəyərində kriptovalyuta - "Ethereum" təklif edib. Osman Yusufoğlu isə 2,5 top buğda və günəbaxan istəyib. Danışıqlardan sonra futbolçu klubun ilk təklifini qəbul edib.

## *Həbib Nurmaqomedov titulunu qorumaq üçün döyüşə çıxacaq*



Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə qalibi Həbib Nurmaqomedov titulunu qorumaq üçün bu ilin sentyabrında döyüşə çıxacaq.

Xatırladaq ki, ABŞ-ın Nevada ştatının Atletika Komissiyası (NSAC) UFC çempionu Həbib Nurmaqomedovu Las-Veqasda keçirilən "UFC 229" turnirində irlandiyalı Konor Makqreqorla döyüşdən sonra saldığı davaya görə doqquz ay müddətinə diskvalifikasiya edərək, 500 min dollar məbləğində cərimə edib.

Döyüşçünün həmkarı, tanınmış boksçu, yüngül çəkidə UFC çempionu Edson Barboza divizondakı rəqibləri barədə öz fikirlərini bölüşərkən deyib: "Həbib əsl döyüşçü, Fergüsson isə əsl çempiondur. Makqreqora gəlincə, onu deyə bilərəm ki, bu insanı düşündürən ancaq şan-şöhrət və puldur".

**olimpnews.az - sizin saytınız**




## Futbolçu hücuma məruz qaldı

"Liverpul"un sabiq futbolçusu Hari Makallister naməlum şəxsin hücumuna məruz qalıb.

Hadisə İngiltərənin Lids şəhərində baş verib.

Hazırda Şotlandiyanın "Reyncers" komandasında baş məşqçi Stiven Cerrardın köməkçisi olan veteran futbolçu həyat yoldaşı ilə taksi gözləyən zaman naməlum şəxs tərəfindən vurulub. Onun üst dodağına 10 tikiş qoyulub.

Qeyd edək ki, futbolçu 2000-2002-ci illərdə "Liverpul"da çıxış edib.

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi

**Gündüz Cəfərovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi

**Gündüz Cəfərovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19